# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 80 (3404) Cümə axşamı / 7-13 oktyabr 2021-ci il Qiyməti 40 qəpik





# Ermənistanla ilk razılaşma

***Son günlərdə İranın qəti şəkildə İslam ölkəsi adına yaraşmayan, işğalçı, 30 il ərzində özünün şimal sərhədlərində "dost və qardaş" adlandırdığı Azərbaycan dövlətinin ərazilərini tamamilə dağıdan, məhv edən bir dövləti dəstəkləməsi Bakı ilə Tehran arasında müəyyən gərginliyə yol açıb. Artıq İran rəhbərliyi "əzələ nümayişi"nə keçərək ordusunun inventarında olan 60-70-ci ilin silahları ilə silahlanmış ordusunun Araz çayı sahillərində hərbi təlimlərini keçirir. Açıq şəkildə bunun Azərbaycana "göz dağı" olduğunu bəyan edir. Tehran bir qədər də irəli gedərək işğal dövründə Ermənistan üçün can damarı rolunu oynadığı, Vətən müharibəsi zamanı kolonlarla silahların daşındığı Ermənistandan fərqli olaraq Azərbaycanın ayrılmaz parçası Naxçıvana dair sərgilədiyi mövqe də heç xoş qarşılanmır. Sadə dillə desək, açıq şəkildə şantaj, siyasətin ən çirkin metodlarına əl atır. Bu gün İran Azərbaycan tərəfinə Naxçıvana daha çox hərbi təchizat funksiyasını yerinə yetirən təyyarələrin uçuşuna qadağa qoyub. İranın belə bir addım atması Azərbaycana, eləcə də İrana hansı əks-təsirlərini göstərə bilər?***



## "İranın Naxçıvana gedən hərbi təyinatlı yüklərin daşınmasına qadağa qoyması Azərbaycana heç bir problem yaratmayacaq"

■ **Hərbi ekspert Şair Ramaldanov hafta.az-a açıqlamasında bildirib ki, Ermənistanın 30 illik işğalçı siyasətinə və İranın bu ölkə ilə qurduğu əlaqələrə baxanda onun bu addımında təəccüblü heç nə yoxdur.**

Ekspert qeyd edib ki, Azərbaycan torpaqlarını erməni işğalından azad edib öz haqqını bərpa edəndən sonra İranın zəfərimizi qısqanclıqla qarşılaması açıq görünürdü. İşğal dövründə Ermənistanın məhz İranla sıx əlaqələr qurduğu, İranın islami dəyərlərə zidd olaraq işğalçı xiristian ölkəyə dəstək durması təəssüf doğurmaqla yanaşı, bu gün verdiyi bəyanat və neqativ addımları da təəccüb doğurmur. Ş.Ramaldanov hesab edir ki, İran Naxçıvana hərbi təchizat funksiyasını yerinə yetirən təyyarələrin uçuşuna qadağa qoymaqla öz mövqeyini bir daha göstərir.

"İranın Naxçıvana gedən hərbi təyinatlı yüklərin daşınmasına qadağa qoyması Azərbaycana heç bir problem yaratmayacaq. Azərbaycanın alternativ yolları, dostları çoxdur. Biz onların hava yollarından istifadə etməklə yüklərin Naxçıvana daşınmasını təmin edəcəyik. Reallıqda Azərbaycanın elə bir yükü də yoxdur. Bu qadağa Naxçıvanda olan ümumqoşun alayına heç bir təsir göstərməyəcək. Naxçıvan plan üzrə öz təchizatını alacaq".

Ekspert İrandan verilən "Azərbaycan təhlükəsizlik məsələlərində xarici qüvvələrlə bağlı illüziyalara qapılmasın..." mesajlarının arxasında heç də xoş olmayan niyyətin dayanmadığını qeyd edib və bu məsələyə Prezident İlham Əliyevin Cəbrayıl sakinləri ilə keçirdiyi görüşdə tutarlı cavab verdiyini bildirib. "Cənab Prezident o görüşdə etdiyi çıxışında bir daha təsdiqlədi ki, Azərbaycan özü öz siyasətini qurur, idarə edir və bizim heç kim tərəfindən idarə olunmağa ehtiyacımız yoxdur. Bütün məsələlər Azərbaycanın maraqları çərçivəsində həll olunmalıdır". Ş.Ramaldanov bildirir ki, Gürcüstan İran nəqliyyat vasitələrinin quru yolu ilə daxil olmasına qadağa qoyub. Onun fikrincə, bu, regionda müəyyən bir geosiyasi proseslərin gedişindən, maraqların toqquşmasından xəbər verir.

"Hər halda Prezident Azərbaycanın mövqeyini açıq şəkildə söyləyib. Azərbaycanın marağı regionda stabilliyin saxlanılmasından irəli gəlir. Əgər müəyyən ölkələr bunda maraqlıdırsa, bizə qoşula bilər. Bu gün Rusiyada xarici işlər nazirləri görüşəcəklər. Proseslərin gedişi ilə bağlı məsələlər müzakirə olunacaq. Düşünürəm ki, proseslər söz duelindən o tərəfə keçməyəcək. İranın düzgün mövqe tutacağına inanıram. Bizim üçün əsas odur ki, Azərbaycanın maraqları təmin edilsin. Azərbaycan onun ziddinə olan məsələlərə yol verməyəcək. Ehtiyac olarsa, Azərbaycanın da İrana qarşı analoji qərar qəbul etməyə haqqı var".

İranın məlum «Naxçıvan həmləsi»ndən sonra gündəmin əsas müzakirəsinə çevrilmiş daha bir məlumat yayıldı. Belə ki, "Azərbaycan Hava Yolları" aviaşirkəti (AZAL) dünəndən etibarən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə daxili reysləri Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməklə yerinə yetirməyə başladığını elan edib.

**Bu, artıq Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin başlanğıcı sayıla bilər. Bu addım Azərbaycanın regionda nəqliyyat kommunikasiyalarının açılmasına qəti hazır olduğunu nümayiş etdirir, bu isə bütün sərhəd dövlətlərin maraqlarına cavab verir.**

Nəzərə almaq lazımdır ki, bu, birtərəfli addım deyil. Ermənistanla Azərbaycan arasında müharibə bitdiyindən regional aviasiya təhlükəsizliyi qaydaları da təbii olaraq dəyişib. Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) qaydalarına əsasən, regionun hava məkanı və bütün hava dəhlizləri artıq uçuşlar üçün açıqdır.

**Odur ki, Azərbaycan beynəlxalq konvensiyalara uyğun olaraq Zəngəzur dəhlizinin üzərindəki hava məkanından istifadə edərək uçuşlar yerinə yetirməyə başlayıb.**

Bu məsələdə həm Azərbaycan, həm də Ermənistanın müvafiq öhdəliyi var. Söhbət ondan gedir ki, Azərbaycan Ermənistan hava məkanı ilə uçuşlar icra etdiyi kimi, eyni şəkildə Ermənistan mülki təyyarələri də Azərbaycan hava məkanından keçən dəhlizlərdən istifadə edə bilər. Yəni, bu proses birtərəfli qaydaya yerinə yetirilmir, həm Azərbaycanın, həm də Ermənistanın regionda yeni reallıqlardan faydalanmaq imkanı yaranıb. Tərəflərin bu imkandan istifadə etməsi həm regional təhlükəsizliyə, həm münasibətlərin normallaşmasına töhfə verir, həm də bunun iqtisadi dividentləri var. Bir faktı vurğulamaq yerinə düşər ki, Bakı-Naxçıvan-Bakı reysinin marşrutunun dəyişərək, Ermənistan üzərindən yerinə yetirilməsi uçuş vaxtının və uçuş zamanı yanacaq sərfiyyatının azalmasına gətirib çıxaracaq. Ermənistan mülki aviasiyasının da eyni qaydada Azərbaycan hava məkanından keçən dəhlizlərdən istifadə etməsi bu ölkə üçün daha əlverişlidir. Son baş verənlər eyni zamanda regionda kommunikasiyaların açılmasının növbəti nümunəsidir. Ermənistan bununla tranzit ölkəyə çevrilir.

Başqa bir maraqlı məqam odur ki, belə olan halda Azərbaycanın uçuşlar üçün İranın hava məkanından istifadə etməsinə ehtiyac qalmır.

✍ *Azad*

MÜSAHİB

# İran raket atmağa cəsarət etməz...



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat

***Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə sentyabrın əvvəllərindən bəri Cənub qonşumuz İrandakı prezident seçkilərindən sonra yenicə formalaşmış hakimiyyətin heç bir əsaslı səbəb olmadan Azərbaycanla münasibətləri gərginləşdirməsi, Rusiya dövlətinin bu məsələyə münasibəti, ABŞ və İsrailin bu gərginlikdən Tehran rejiminə qarşı yararlanmasından və s. danışdıq, Güney Azərbaycan məsələsinə toxunduq.***

*Tehranın Azərbaycana qarşı bu məkrli siyasəti oradakı rejimin dəyişməsinə fürsət yaradacaq...*

▸▸ Səh. 2

MÜSAHİB



**Rauf Məmmədov,**
AMEA-nın elmi işçisi, politoloq

■ Minsk qrupunun həmsədr dövlətləri olan Rusiya, ABŞ və Fransa erməni mövqeyindən çıxış edirlər.

■ Əgər Türkmənistan qazı Azərbaycan vasitəsilə Türkiyəyə ötürülsə, bu İran qazına böyük rəqabət təşkil edəcəkdir.

■ Ermənilərin bir qismi öz evlərini satıb gedəcək, yerdə qalanlar isə Azərbaycan vətəndaşları kimi yaşayacaqlar...

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...




**Ermənistan üzərindən ilk uçuş edən heyət...**

GÜNÜN SİTATI

*"Bu günlərdə İranın sərhəd yaxınlığında keçirdiyi təlimlərlə bağlı Azərbaycanın da ifadə etdiyi narahatlıqlar mövcuddur"*



**Sergey Lavrov,**
Rusiyanın xarici işlər naziri

KARİKATURA




**Arazın o tayı və bu tayı...**

# Müharibə əlillərinə indiyədək 7350 avtomobil verilib

**Fazil Talıblı,**
ƏƏSMN-in mətbuat xidmətinin rəhbəri

Cari ilin ötən dövründə həmin 1650 mənzil təqdim edilənlər sırasında da həm həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olanların ailələri və hər iki müharibənin əlilləri var.

▸▸ Səh. 5

STATİSTİKA



■ **Bu ilin 9 ayı ərzində valideyn nimayəsindən məhrum olmuş uşaqlar və övladlığa götürmə altsisteminə 286 müraciət daxil olub.**

Bu barədə Sosial Xidmətlər Agentliyindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib. Qeyd edilib ki, bu il Agentlik tərəfindən 86 uşaq övladlığa verilib ki, onlardan 41-i oğlan, 45-i qızdır.



▸▸ Səh. 3

# Dərman vasitələrinin qeydiyyatı problemi

PREZİDENTİN İŞ GÜNÜ

# Azərbaycan qazı artıq Avropa bazarındadır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib.**

Səfiri salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, əməkdaşlığımızın, uzunmüddətli əməkdaşlığımızın çox geniş gündəliyi var. Bu, çox səmərəli və uğurlu əməkdaşlıqdır: "Sizin qeyd etdiyiniz sahələr, əslində, bizim əməkdaşlığın prioritet sahələridir və prezident Şarl Mişelin bu yay səfəri zamanı biz bu məsələləri geniş müzakirə etdik. Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra əməli addımlar atıldı və ötən ilin son günündən bu yana biz artıq əməli nəticələri görürük. Azərbaycan qazı artıq Avropa bazarındadır.

Əlbəttə ki, bizim böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq - xüsusilə indi, qışda hər kəs göründə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir".

Dövlət başçısı bildirib ki, ən mühüm sahələrdən biri postmüharibə dövründə inkişafın, davamlı sülhün və əməkdaşlığın bərqərar olmasına Avropa İttifaqının töhfəsidir və biz buna hazırıq: "Siz bəlkə də mənim bununla bağlı bəyanatlarımı eşitmisiniz. Mən nəzərdə tutduğumu deyirəm, bu, bizim siyasətimizdir. Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik. Biz sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırıq. Bu proses qismən başlayıb. Lakin düşünürəm ki, əgər Avropa İttifaqı fəal iştirak etsə, -mən belə bir istəyin olduğunu görürəm, - bu, bir çox sahələrdə bizə kömək edə bilər. Ümumilikdə Cənubi Qafqazda vəziyyət 30 il ərzində olmayan tamamilə yeni bir miqyas ala bilər. Bu da sabitlik, proqnozlaşdırılma və sülhün çox mühüm amili ola bilər".

***

**Hidayət Xuduş oğlu Orucov Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.** Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Prezidentin digər sərəncamı ilə Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

***

Mahirə İsmayıl qızı Adnayeva Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

BAŞSAĞLIĞI

Əzizimiz Nicat, atanız - əfsanəvi "Qarabağ bülbülləri" ansamblının fəal üzvü olmuş

**Cəfərov İzahat Məzahir oğlunun**

vaxtsız vəfatı ilə əlaqədar olaraq kədərləndiyimizi bildiririk. Ailəmiz və ansambl adından Sizə dərin hüznlə başsağlığı veririk.

Torpağı nurla dolsun!

Hörmətlə: ansamblın bədii rəhbəri, "SSRİ maarif xadimi" Murad Yunis oğlu Rzayev

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Gündəm

# İran raket atmağa cəsarət etməz...

***Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə sentyabrın əvvəllərindən bəri Cənub qonşumuz İrandakı prezident seçkilərindən sonra yenicə formalaşmış hakimiyyətin heç bir əsaslı səbəb olmadan Azərbaycanla münasibətləri gərginləşdirməsi, Rusiya dövlətinin bu məsələyə münasibəti, ABŞ və İsrailin bu gərginlikdən Tehran rejiminə qarşı yararlanmasından və s. danışdıq, Güney Azərbaycan məsələsinə toxunduq.***



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat

***- Etibar bəy, son həftələr rəsmi Tehranın Azərbaycanla münasibətləri, demək olar ki, süni şəkildə gərginləşdirməsi İranın özü üçün hansı təhlükələri daşıyır?***

- Bilirsiniz, İran özü onsuz da dünyadan izolyasiya olunmuş dövlətlərdən biridir. Ətrafındakı dövlətlərlə əlaqələrinə baxsaq, bu ölkənin mənafelərinə görə yalnız Rusiya ilə normal əlaqələri var, Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxlamış Ermənistanla isə İran açıq qardaşlıq edir. Yəni ətrafındakı dost ölkə yalnız Ermənistandır. Digər ölkələrlə isə problemləri, konfliktləri var. Ümumilikdə isə planetdə təcrid olunmuş, müxtəlif təşkilatlar və müxtəlif ölkələr tərəfindən sanksiyalara məruz qalmış bir ölkədir. Onun mövqeyi dünyada qəbul olunmayan mövqelərdəndir. Odur ki, İranın Azərbaycana qarşı son dövrdəki münasibəti onun bu problemlərini, eləcə də daxili problemlərini daha da gücləndirəcək.

Təbii ki, rəsmi Tehranın ölkəmizə qarşı belə münasibətinin əsas səbəbi onun Azərbaycanla Ermənistan arasında sülh yaranmasını istəməməsidir. İran eyni zamanda Türkiyə ilə də Ermənistanın münasibətlərinin normallaşmasını, sərhədlərin açılmasını istəmir. Bu gün Ermənistanın yeganə nəfəs yolu İrandan keçir. Azərbaycan və Türkiyə ilə sərhədlərin, iqtisadi əməkdaşlığın bərpası isə Ermənistanın iqtisadiyyatını kifayət qədər gücləndirə bilər və nəticədə bu ölkənin İrandan asılılığı yetərincə azalar. Odur ki, rəsmi Tehran həmin yaxınlaşma prosesinin qarşısını almaq üçün daim çalışır ki, əksinə, Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətləri daha da gərginləşsin...

***- İran hakimiyyətinin bizdən şikayət etdiyi rəsmi Moskva bu məsələyə açıq münasibət bildirmir. Özü də baxırıq ki, məhz bu günlərdə Qarabağdakı Rusiya hərbi kontingenti ən azı öz xəritələrinə Azərbaycanın strateji yaşayış məntəqələri və yüksəkliklərini, hətta razılaşmadan kənar məntəqələrimizi daxil etməyə başlayırlar. Bəlkə Qarabağın nəzarət etdiyi hissəsində öz bildiyi kimi davranmaq və mövqelərini daha da möhkəmləndirmək üçün Rusiyaya diqqəti yayındıran İran-Azərbaycan gərginliyi sərfəlidir?***

- Dediyiniz məsələlər əslində Azərbaycanın müəyyən zaman kəsiyindən sonra həll edə biləcəyi məsələlərdir. Sadəcə, Rusiya təbii ki, Azərbaycan-İran münasibətlərində gərginliyin olmasında maraqlı ola bilər. Həmin gərginliyin yaranmasında birbaşa iştirakçı olub-olmaması bir az şübhə altındadır. Burada İranın özünün mənafeləri əsas rol oynayır. Tehranın gərginlik yaratmasının səbəblərindən biri də öz nüvə proqramı ilə bağlıdır.

Son qeyri-rəsmi məlumatlara görə, İran artıq nüvə silahı yaratmağın son mərhələsindədir. Odur ki, beynəlxalq güclər tərəfindən zərbələrə məruz qala biləcəyini yaxşı bilir. Bunu İsrail də edə bilər. Bunun qarşısını almaq, diqqəti yayındırmaq üçün İran başqa dövlətlə gərginliyi artırmaqda maraqlıdır. Görürsünüz ki, Azərbaycana olan ittihamı bundan ibarətdir ki, guya sionistlər burada İrana qarşı baza qururlar. Öz əhalisini də həmin "sionizmlə mübarizə" pərdəsi altında aldatmağa çalışır ki, Azərbaycana qarşı davranışlarının əsl mahiyyətini gizlətsin. Bilir ki, bu yaxınlarda nüvə silahı ilə əlaqədar zərbəyə məruz qala bilər. Bunu da Azərbaycanla əlaqələndirmək istəyir...

***- Ermənistanda bəzi siyasi avantüristlər belə təkliflər səsləndirir ki, Türkiyə-Azərbaycan-Pakistan birliyinə qarşı Rusiya-İran-Ermənistan birliyi yaranmalıdır...***

- Bu, sadəcə, belə düşünən ermənilərin arzusu ola bilər. Təbii ki, Ermənistanla Rusiya onsuz da müttəfiqdirlər. Rusiyanın öz maraqları var həmin ölkə ilə bağlı... Fəqət Moskva öz maraqlarını Tehranın maraqlarıyla eyniləşdirə bilməz. Bu maraqlar üst-üstə düşmür. İranın maraqları həm də Azərbaycanın hərbi cəhətdən qüdrətini artırması, son Qarabağ savaşındakı qələbəsi, Azərbaycanın dövlət kimi ayaqda durması və güclənməsi İran rejimini narahat edir. Oradakı azərbaycanlıların sanki bir dayaq istiqaməti meydana çıxır.

Milli ideyanın, artıq vahid bir dövlət ətrafında formalaşması prosesi gedir. Rəsmi Tehran daha çox bundan narahatdır. Ona görə də Azərbaycanın zəifləməsində və problemlərinin artmasında çox maraqlıdır. İranın başındakılar onu da bilirlər ki, Zəngəzur dəhlizi açılandan sonra Azərbaycanın geosiyasi mövqeləri, eləcə də iqtisadiyyatı olduqca güclənəcək. Nəticədə Azərbaycanı ərazisindən keçən böyük bir Şərq-Qərb tranzit koridoru fəaliyyətə başlayacaq və İran regiondakı geosiyasi və geo-iqtisadi əhəmiyyətini xeyli itirəcək. İranın da Ermənistanın yeganə nəfəs yolu olması artıq aradan qalxacaq...

***- Necə hesab edirsiniz, birdən İran çaşıb Bakı istiqamətinə bir raket atsa, nə baş verə bilər?***

- Məlumdur ki, İran ordu rəhbərliyi və bəzi din xadimləri və siyasətçiləri tərəfindən Azərbaycana qarşı açıq hədə-qorxu mövcuddur. İran rejimi o dərəcədə cürətə malik deyil ki, bunu gerçəkdən etsinlər. Əvvəla, Azərbaycanın hava hücumundan müdafiə sistemi kifayət qədər güclüdür və İrandan olan hücumların qarşısını ala bilər.

İkincisi də bu rejimə qarşı əks-zərbəni Azərbaycana müttəfiq dövlətlər də elə bizimlə bir yerdə vura bilərlər. İran bunu da yaxşı bilir. O da var ki, İran ordusu texniki cəhətdən haradasa 50 il öncənin texnologiyasına əsaslanır. Onlar yalnız raketlərinə arxayındırlar. Nə aviasiyaları, nə də quru qoşunları normal vəziyyətdədir. Raketlərinə gəldikdə, onların da dəqiqliyi yenə də köhnə sovet-rus sisteminə uyğun "dəqiqliyə" söykənir, ancaq aranı qarışdırmaq üçün kifayət edir...

***- Bu gərginlikdən yararlanan İrana zidd güclərin, məsələn, ABŞ, İsrail əsas hansı məqsədi güdür? Onların son hədəfi İranı parçalamaqdır, yoxsa?***

- Xeyr, zənnimcə, planda parçalanma məqsədi yoxdur. Əsas hədəf rejimi dəyişmək və İranın nüvə silahına malik olmasının qarşısını almaqdır...

***- İran parçalandığı halda, təbii ki, Güney Azərbaycanın Quzeylə birləşməsi istəyi ortaya çıxacaq. O halda bu gün bizimlə müttəfiq olan güclər vahid, bütöv və daha güclü bir Azərbaycan yaranmasını istəyərmi?***

- Bu, bir az perspektivdə olan məsələdir. İndi əsas məsələ oradakı Azərbaycan türklərinin mənafelərinin müdafiəsi, onların hüquqlarının təmin olunmasıdır. Ayrılmaq, birləşmək məsələləri sonranın məsələsidir. Hazırda Tehran rejimi milli oyanış, milli özünüdərk prosesindən çəkinir və qorxur. İndiyədək İslam, müsəlmanlıq bayrağı altında təbliğat aparırdılar ki, guya İranda etnik ayrı-seçkilik yoxdur, hamı müsəlmandır, hamı bərabərdir. Halbuki rejimin faktiki fəaliyyəti İranda yaşayan türkləri, yəni azərbaycanlıları sıxışdırmaqdan ibarət olub. Yəni soydaşlarımızın haqlarını tapdayıblar, öz dillərində təhsil almalarına, öz mədəniyyətlərini inkişaf etdirməsinin qarşısını alıblar. Elə indi də İran hakimiyyətinin qorxusu məhz o istiqamətdədir. Azərbaycan Respublikasının, yəni Quzey Azərbaycanın güclənməsi bu rejimə çox pis təsir edir və onun başında duranları çox böyük qorxu altına salır...

> *Tehranın Azərbaycana qarşı bu məkrli siyasəti oradakı rejimin dəyişməsinə fürsət yaradacaq...*

***- Necə hesab edirsiniz, bu böhranın sonu nə ilə bitəcək? İran öz yanlış mövqeyini dərk edəcəkmi?***

- Hadisələrin gedişi belə göstərir ki, indi Azərbaycan və Türkiyə ilə münasibətlərdəki gərginlikdən yaranmış böhran sonda İranın öz daxilində də siyasi böhran yaranmasıyla nəticələnəcək. Çox güman ki, belə də olacaq...

***- Yəni belə çıxır ki, İranın Azərbaycana və Türkiyəyə qarşı bu məkrli siyasəti beynəlxalq güclər üçün oradakı rejimin dəyişməsinə fürsət yaradacaq?***

- Bəli, elə çıxır. Bu gedişlə İranın öz daxilində ciddi siyasi təlatümlər olması gözlənilir...

✍ Sultan Laçın

# Cəbrayılın azad edilməsi strateji baxımdan mühüm rol oynadı

***Cəbrayılın işğaldan azad olunması və 44 gün ərzində əldə olunan sonrakı uğurlarımız Ermənistan və onların havadarlarına böyük dərs oldu. Cəbrayılda və işğaldan azad olunmuş rayonlarımızda hərbi qələbə çalan ordumuz, düşmənlə mübarizədə meydanı diplomatik savaşçılara həvalə etməklə bu gün də ayıq-sayıqlığını itirmədən torpaqlarımızın azadlığının təminatçısı kimi öndə dayanır. Cəbrayılın işğaldan azad olunmasının 1 ili dünyaya hansı siyasi, hərbi mesajlarını vermiş oldu?***



**Fikrət Sadıqov,**
politoloq

**■ Bu və ya digər məsələlərlə bağlı hafta.az-a danışan politoloq Fikrət Sadıqov Azərbaycanın Cəbrayıl istiqamətində əldə etdiyi hərbi qələbənin beynəlxalq siyasi arenada yaratdığı rezonansa diqqət çəkib.**

Politoloq bildirib ki, işğalda olan Azərbaycan məntəqələrinin, şəhərlərinin azad olunmasının hərbi, siyasi, strateji əhəmiyyəti var və Cəbrayıl rayonu da istisna deyil.

"Cəbrayılın işğaldan azad olunması o demək idi ki, Azərbaycanın əks-hücum əməliyyatı bir sıra addımları müsbət şəkildə həll olunub. Hər halda dünya ictimaiyyəti, siyasi dairələr başa düşdü ki, biz dayanmayacağıq. Öz torpaqlarımızı azad etmək üçün bütün vasitələrdən istifadə edəcəyik. Cəbrayıl və ondan sonra digər yaşayış məntəqələrini işğaldan təmizləmək və erməni tapdağından azad etməyin dərin siyasi və strateji əhəmiyyəti var. Bunu bir sıra qonşularımız, həm dünya siyasətində Ermənistanla oyun oynayan, həm də başlarını sığallayan dairələr başa düşdü".

Politoloq bildirib ki, torpaqlar azad edildəndən sonra beynəlxalq güclər, eləcə Ermənistanın özü tərəfindən Azərbaycana qarşı xain, cinayətkar təsirlər oldu. Onun sözlərinə görə, bir çox qüvvələr Azərbaycanın qələbəsini qəbul etmək istəmirlər.

"Həmin o güclər biz torpaqlarımızı azad edəndə də müxtəlif bəyanatlar verirdilər. Buna ciddi reaksiya vermirdik. Başa düşürdük ki, biz nə edirik, sağlam düşüncəli siyasətçilər, dövlət xadimləri vəziyyəti dərk edirlər. Hər halda Gəncəyə atılan bombaların törətdiyi dağıntılar və 100-ə yaxın mülki vətəndaşımızın şəhid olması ermənilərin necə vəhşi olduğunu ortaya qoyan əsas faktlar idi. Biz bunu dünyaya yaya bildik. Gəncəyə jurnalistləri, ekspertləri gətirdik. Oradan müsahibələr hazırladıq, mətbuat konfransları keçirildi. Beləliklə, hərbi, siyasi, strateji və düzgün informasiyanın verilməsi istiqamətində işlərimizi qura bildik. Bu reallığı həm düşmənimiz, həm də onu dəstəkləyən qüvvələr başa düşdü". F.Sadıqov deyir ki, dünya Cəbrayılın işğaldan azad olunması reallığını qəbul edib. Sübut eləmək ki, uğrunda şəhidlər verdiyimiz o torpaqlar, Cəbrayıl və digər ərazilərimiz bizim ərazilərdir:

> *Biz beynəlxalq məhkəmələrə müraciət etmişik, amma müraciətimiz daha kəskin, hücumedici olmalıdır*

"Cəbrayılı azad edib, digər əməliyyatların keçirilməsində uğurlara nail olandan sonra düşmən oyun oynamadığımızı başa düşdü. Anladı ki, məqsədimiz işğalçını torpaqlarımızdan qovmaqdır. Biz bu məqsədə nail ola bildik. Cəbrayıl belə bir strateji nöqtə kimi mühüm rol oynadı.

Biz hazırda meydanda erməni vandallığını göstərən faktlarla, rəqəmlərlə, arqumentlərlə, azad olunan torpaqlara beynəlxalq təşkilatların nümayəndələrini gətirməklə o torpaqların pozulan hüquqlarını bərpa etməliyik. Biz beynəlxalq məhkəmələrə müraciət etmişik, amma müraciətimiz daha kəskin, hücumedici olmalıdır. Dayanmadan bu istiqamətdə işləməliyik. Əsas məqsədimiz odur ki, dünya nəhayət hansı vandalizmlə üzləşdiyimizi başa düşsün. Düzdür, düşmənlərimiz bu faktları görsə də göz yumacaq. Digər tərəfdən tərəfdarlarımız da çoxalacaq. Bəlkə də bunu görməyənlər görəcək. Biz bu işi kampaniya şəklində yox, düşünülmüş və planlı şəkildə etməliyik. Burada hüquqşünasların da rolu çox böyükdür. Əgər işğal, teror faktları məhkəməyə çıxarılacaqsa bizə kifayət qədər dəlillər lazımdır. İşğaldan azad olunmuş ərazilərdə filmlər çəkməli, şəkillər çəkməli, müsahibələr almalı və dünya ictimaiyyətinə çatdırmalıyıq. Bu istiqamətdə xaricdəki səfirliklərimiz xüsusilə çalışmalıdır. Səfirliklərin prioritet işi bundan ibarətdir. Cəbrayıl hərbi yolla azad edilib və indi onun haqqının bərpası istiqamətində diplomatik savaş daha sərt şəkildə davam etməlidir".

✍ Tahirə

# Dərman vasitələrinin qeydiyyatı problemi

## Araşdırma

***Azərbaycanda “Dərman vasitələri haqqında” qanuna dəyişikliklər edilməsi təklif olunur. Ötən həftə bu təklifi parlamentdə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev səsləndirib. Millət vəkili təklifini onunla əsaslandırıb ki, ölkəmizdə mövcud qanunvericilikdə dərmanların qeydiyyatı qəliz və sərtdir. Bu məsələ isə yeni dərmanların ölkəyə gətirilməsinə əngəl yaradır.***



Deputat bildirib ki, bu gün dünya ölkələrinin aldığı dərmanları biz ala bilmirik: “Pandemiya bu prosedurun çətin olduğunu bir daha göstərdi. Avropa dövlətlərində qeydiyyatda olan və işlənən dərmanlar bizdə avtomatik olaraq qeydiyyata alınmalıdır.

Qeydiyyat prosedurunun bir iştirakçısı da dərman istehsalçılarıdır. Əhalisi az olan ölkələrdə həmin istehsalçılar belə çətin prosedurlara görə maraqlı deyil. Qeydiyyatda tanıma rejimi Türkiyədə tətbiq edilir. Bu, bizdə də tətbiq edilməlidir. Biz qardaş Türkiyədə qeydiyyatdan keçən dərmanları avtomatik qeydiyyata almalıyıq. ”Dərman vasitələri haqqında” qanunda dəyişikliklər etməliyik. Müharibə dövründə biz gördük ki, elə dərmanlar var ki, onlara gündəlik ehtiyac var. Qanunvericiliyə qeydiyyat proseduru ilə bağlı dəyişikliklər etməliyik. Buna payız sessiyasında baxsaq, yaxşı olar”.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Musa Quliyevin fikri ilə razı olmadığını bildirib: “Bu çox təhlükəli bir şeydir. Dərman preparatları geyim vasitəsi deyil. Ölkəyə gətirilən dərman vasitələrinə çox ciddi nəzarət olmalıdır. Nəzarətdən keçdikdən sonra o dərmanlar ölkəyə gətirilə və istifadə edilə bilər. Keyfiyyətsiz dərmanların ölkəyə gətirlməsi problemi var.

Bir neçə il bundan öncə ”Dərman vasitələri haqqında” qanunda ciddi dəyişikliklər edildi. Ancaq tamamilə hansısa ölkədə qeydiyyatdan keçmiş dərman vasitələrinin ölkədə qeydşərtsiz tanınmasına qarşıyam. Müəyyən nəzarəti keçmədən ölkəyə dərman vasitələrini gətirmək olmaz. Mən bununla bağlı Səhiyyə nazirini əvəz edən Teymur müəllimlə də söhbət etmişəm. Musa müəllim dediyi kimi dərmanları ölkəyə gətirmək böyük hərc-mərclik yarada bilər”.

Sahibə Qafarova təklif edib ki, bununla bağlı dinləmələr keçirilsin: “Milli Məclisin bu qanunda dəyişiklik etmək üçün əsasları olmalıdır”. Maraqlıdır, bəs görəsən, ölkəyə idxal olunan dərmanların qeydiyyat proseduru hansı formada həyata keçirilir? Mövcud qanunvericilikdə hansısa dəyişikliklərə ehtiyac varmı? İndiyədək Dərman vasitələrinin dövlət Reyestrində ümumilikdə neçə adda dərman qeydiyyatdan keçib?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Sosial Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri, sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirib ki, mövcud qanunvericilikdə müəyyən dəyişiklik etmək, yumşalmalara getmək mümkündür.**

### İndiyədək Dərman vasitələrinin dövlət Reyestrində 5192 adda dərman vasitəsi qeydiyyatdan keçib


**İlqar Hüseynli,**
SSTM-nin rəhbəri,
sosial sahə üzrə ekspert

“ *Ölkəyə gətirilən dərman vasitələrinə çox ciddi nəzarət olmalıdır. Nəzarətdən keçdikdən sonra o dərmanlar ölkəyə gətirilə və istifadə edilə bilər*

Amma biz həm də dərman vasitələri ilə bağlı idxaldan asılılığımızı azaltmağa çalışmalıyıq: “Bu gün biz demək olar ki, təxminən 95 faiz idxaldan asılı vəziyyətdəyik. Təsəvvur edin ki, biz Gürcüstandan dərman idxal edirik. Hansısa fors major hallar baş verəndə isə dərman qıtlığı yaşayırıq. O ki qaldı dərmanların qeydiyyat proseduruna “Dərman vasitələri haqqında” Qanuna görə, dərman vasitəsi satışa çıxarılmadan öncə ilkin olaraq dövlət qeydiyyatından keçməlidir. Yəni dərman vasitəsi qanunvericiliyə uyğun olaraq müvafiq ekspertizalardan keçirilərək dövlət qeydiyyatına alınır. Bununla da preparata qeydiyyat vəsiqəsi hazırlanır və preparat Dərman Vasitələrinin Dövlət Reyestrinə daxil edilir. Yalnız bundan sonra həmin preparatın ölkəyə idxalına və istifadəsinə icazə verilir.

Dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra hər dəfə ölkəyə idxal olunan zaman Dövlət Gömrük Komitəsi və Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin mütəxəssislərinin iştirakı ilə idxal olunan dərman vasitəsinin hər bir seriyasından müvafiq laborator yoxlamaların aparılması üçün nümunələr götürülür. Nümunələr Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzində yaradılmış laboratoriyaya təhvil verilir. Müvafiq laborator yoxlamalar aparıldıqdan sonra dərman vasitəsi sertifikatlaşdırılır və ölkəyə idxal olunur. Bu prosesdə ciddi bürokratik əngəl yoxdur. Ola bilsin ki, hansısa məmur sahibkara süni şəkildə problem yaratsın. Belə hallar baş verir. Amma ədalət naminə deyim ki, bir xeyli vaxtdır bu kimi nöqsanlar aradan qaldırılıb. Əsas problem qiymətlərin tənzimlənməsi məsələsində ortaya çıxır. Yəni, Tarif Şurasında bu məsələnin tənzimlənməsi doğru addım deyil. Bu sahibkarlıq fəaliyyətinin dəstəklənməsi ilə ziddiyyət təşkil edir. Məsələn, bir sahibkar xaricdən dərman idxal edir və həmin dərmanı zavoddan həmişə eyni qiymətə ala bilməz. Müxtəlif faktorlar qiymətlərə mütəmadi olaraq təsir göstərir. Belə olan təqdirdə, sahibkar dərmanı Tarif Şurasının qoyduğu qiymətə sata bilməz. Ona görə də məhz bu siyasətdən sonra xeyli dərman idxalçıları ya bazardan uzaqlaşdılar, ya da bioloji aktiv əlavələr gətirməyə başladılar. Çünki bioloji aktiv əlavələr kimyəvi molekul olmadığından yalnız Mərkəzi Analitik Laboratoriyadan sertifikat alınır. Eyni zamanda, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən uyğunluq sertifikatı əldə olunduqdan sonra mal ölkəyə idxal olunur və qiymətə də Tarif Şurası müdaxilə etmir”.

■ **Mövzu ilə bağlı hafta.az-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Esmira Əkbərova isə bildirib ki, dərman vasitəsinin dövlət qeydiyyatı və ya yenidən dövlət qeydiyyatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilib:** “Bu məsələ “Dərman vasitələrinin ekspertizasının aparılması” QAYDASI ilə tənzimlənir (http://www.e-qanun.az/-framework/44064, 4cü maddədən başlayaraq). Qeyd edək ki, qaydalar Avropa standartlarına uyğun hazırlanmışdır, bu səbəbdən prosedurun qəliz olması reallığa uyğun gəlmir. Qonşu ölkələr və eləcə də post sovet məkanı ölkələrin qeydiyyat qaydalarına nəzər salsaq və müqayisə etsək, ölkəmizdə qeydiyyat qaydalarının daha optimal olduğunun şahidi olarıq. “Dərman vasitələrinin ekspertizasının aparılması” QAYDASI na əsasən, keyfiyyətindən asılı olaraq, dərman vasitəsinin sürətlənmiş qeydiyyatı da mövcuddur. Bizə daxil olan məlumatlara əsasən, iri, qabaqcıl şirkətlər tərəfindən dərman vasitələrinin ölkəyə gətirilməsində əngəllər əsasən marketinq səbəbi ilə əlaqədardır”. Qurumdan həmçinin vurğulanıb ki, indiyədək Dərman vasitələrinin dövlət Reyestrində 5192 adda dərman vasitəsi qeydiyyatdan keçib.

✍ ***Sevinc***

## Hüquq



***Ədliyyə Nazirliyi məhkəmə qərarı ilə müsadirə olunan əmlakların hərraca çıxarılması qaydasına aydınlıq gətirib.***

# Müsadirə olunaraq satışa çıxarılan əmlakın statistikası aparılmır

Bununla bağlı sözügedən qurumun İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib ki, “İcra haqqında” Qanunun 53, 61 və 62-ci maddələrinə əsasən borclunun əmlakı, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əmtəə birjaları nəzdində yaradılan və bu cür əməliyyatlar aparmaq hüququna malik olan ixtisaslaşdırılmış müəssisələr tərəfindən hərrac yolu ilə satılır: “Dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlak icra xidmətinin müəyyən etdiyi ticarət şəbəkələrində müvafiq müqavilə əsasında satıla bilər. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90-cı maddəsinə əsasən vergi ödəyicisinin siyahıya alınmış əmlakının ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur”.

Qurumdan bildirilib ki, hərracın keçirilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir. Hərrac təşkilatları hərracın keçiriləcəyi tarixlə bağlı əvvəlcədən kütləvi informasiya vasitələrində məlumat dərc etdirirlər və icra məmurundan müvafiq sifarişin alındığı gündən ən geci iki ay müddətində ixtisaslaşdırılmış müəssisələr tərəfindən hərrac keçirilməlidir: “Əmlak satılmadıqda, həmin əmlak yenidən tələbkara təklif olunur. Tələbkar əmlakdan imtina etdikdə, əmlak borcluya, icra sənədi isə icra sənədini vermiş məhkəmə və ya digər orqana (notariusun icra qeydi isə tələbkara) qaytarılır. Borclunun əmlakının satılması üzrə hərraclar, bu Qanunun 53.2-ci maddəsində göstərilən ixtisaslaşdırılmış müəssisələr tərəfindən müvafiq müqavilə əsasında təşkil edilir və keçirilir. İxtisaslaşdırılmış müəssisələr hərracı icra məmurunun sifarişi əsasında keçirirlər. Həmin sifarişdə hərraca qoyulan əmlakın ilkin qiyməti göstərilir. Sifarişə aşağıdakılar əlavə edilir: icra sənədinin surəti; əmlak üzərinə həbs qoyulması haqqında icra məmuru tərəfindən tərtib edilmiş aktın surəti; daşınmaz əmlak satıldıqda, həmin əmlaka dair sənədlər; ayrıca tikili satıldıqda, həmin tikilinin yerləşdiyi torpaq sahəsindən istifadə hüququnu və ya həmin torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlərin surəti. Uzunmüddətli icarə hüququ hərraca çıxarıldıqda, bu Qanunun 61.3.1 - 61.3.4-cü maddələrində göstərilən sənədlərə icra məmuru tərəfindən aşağıdakılar da əlavə edilir: icarə müqaviləsinin surəti; icarə müqaviləsinin qeydiyyatını təsdiq edən sənədin surəti; tələbin uzunmüddətli icarə hüququna yönəldilməsinə icarəyə verənin razılığını təsdiq edən sənədin surəti və ya icarəçi icarə hüququnu hərrac nəticəsində əldə etdikdə, uzunmüddətli icarə hüququnun icarəçiyə keçməsini təsdiq edən sənədin surəti.

Tikintisi başa çatmamış obyekt üzərində hüquq satıldıqda, bu Qanunun 61.3.1 - 61.3.4-cü maddələrində göstərilən sənədlərə icra məmuru tərəfindən aşağıdakılarda əlavə edilir: torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti; tikintiyə icazənin surəti. Vergi ödəyicisinin siyahıya alınmış əmlakının qanunvericiliklə müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış açıq hərraclarda satılması zamanı icra məmurunun sifarişinə əlavə edilən sənədlər Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilir”.

Bu il üzərində həbs qoyulmuş neçə əmlakın satışının həyata keçirildiyinə gəlincə, bununla bağlı statistika aparılmadığı qeyd olunub. Nazirlikdən həmçinin vurğulanıb ki, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət qabiliyyəti olan hər bir şəxs belə hərraclarda iştirak edə bilər.

✍ ***Sevinc***

## Tarix

# Ermənistan Gəncə terroruna görə beynəlxalq məhkəmədə cavab verməlidir

***Ermənistan cinayətkarlarının Gəncədə törətdiyi ilk terror aktından 1 il ötdü. 2020-ci ilin oktyabr ayında Ermənistan Silahlı Qüvvələri 5 dəfə ayrı-ayrı vaxtlarda Gəncədə hərbi cinayətlər, terror törədiblər. Döyüş sahəsindən kilometrlərlə uzaqda yerləşən Gəncə şəhəri Ermənistan tərəfindən qadağan olunmuş raketlərilə bombalanıb. Bu raket hücumları insanlıq əleyhinə cinayət, terror kimi dəyərləndirilsə də, BMT, Avropa İttifaqı və Türkiyə tərəfindən qınanılsa da, Ermənistan hələ də soyqırım əməlinə görə beynəlxalq hərbi məhkəməyə çəkilməyib.***

Qeyd edək ki, Ermənistanın Gəncəyə ilk raket hücumu 4 oktyabrda baş verdi. Nəticədə 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlunun Şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı.

İkinci raket hücumu 5 oktyabrda baş verdi və nəticədə 3 mülki şəxs yaralandı. Üçüncü raket hücumu oktybarın 8-də baş verdi.

Dördüncü raket hücumu isə 11 oktyabrda baş verdi və nəticədə 10 mülki şəxs Şəhid oldu və 40-dan çox insan yaralandı. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələndi.

Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla 16 nəfər Şəhid oldu, 55 nəfər isə yaralandı.

Ermənistanın bu raket hücumları zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəydi. Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar, qocalar, qadınlar da vardı. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu hücumu ”Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırım aktı” adlandırıb. Faktlar Ermənistanın Azərbaycana qarşı insanlığa, heç bir hərbi-mülki beynəlxalq hüquq normalarına sığmayan cinayətini təsdiq etsə də, hələ də beynəlxalq aləmdə səssiz qarşılanır. Gəncə terroruna görə Ermənistan niyə məsuliyyətə cəlb olunmur?



■ **Bu barədə hafta.az-a açıqlama verən Konstitusiya Araşdırmaları Mərkəzinin rəhbəri Əliməmməd Nuriyev bildirib ki, beynəlxalq təşkilatlar, beynəlxalq məhkəmələr cinayətkar Ermənistanın bu cinayətkar əməlllərinə qarşı sonuna qədər səssiz qalmayacaq.** Onun sözlərinə görə, belə cinayətləri törətmiş Ermənistanın siyasi, hərbi şəxsləri məsuliyyətə cəlb edilməyəcəklərsə, Araik Arutunyan kimi quldurbaşı, terrorçu öz fəaliyyətini davam etdirəcəksə və ayrı-ayrı dövlətin vəzifəli şəxsləri onları qucaqlayacaqsa, bu həmin dövlətlərin də terrorçularla bərabər olmasının göstəricisidir. Ona görə də Ə.Nuriyev beynəlxalq ictimaiyyəti ədalətə, haqqa söykənməyə çağırdı. Ə.Nuriyev bəyan edib ki, Ermənistanın Gəncədə mülki yaşayış binalarını bombalaması insanlıq əlehinə, bəşəriyyətə qarşı olan qatı cinayətdir və Cenevrə Konvensiyasında qəbulolunmaz əməl sayılır.

“Cenevrə Konvensiyası müharibə dövründə, hətta müharibə zonasında yerləşən mülki obyektlərə və mükli vətəndaşlara hər hansı bir ziyanın vurulmasını qadağan edir. Cenevrə Konvensiyasi, eləcə də uzaq məsafəyə vuran raketlərdən istifadə edilməsini qəbul etmir və bunu insanlıq əleyhinə cinayətlər siyahısına daxil edib. Gəncə müharibə zonasından çox uzaqda olsa da, bu şəhərdən hər hansı bir formada müharibə ərazisinə hər hansı bir silahdan istifadə edilməsə də, Ermənistan tərəfindən raket hədəfinə alındı. Azərbaycan Respublikası Prokurorluğu həmin cinayətə dair cinayət işi qaldırıb. Dünya gördü ki, erməni faşistləri bu terroru Ermənistanın siyasi və hərbi rəhbərliyinin qərarı ilə həyata keçirib. Erməni cinayətkarları Gəncədən sonra Bərdəyə də qadağan olunmuş uzaqmənzilli raketlər atdılar. Tərtər bombalandı. Bu, kütləvi insan tələfatına gətirib çıxardı. Azərbaycan tərəfi Ermənistanın bu cinayətləri ilə bağlı müvafiq sənədlər, hesabatlar hazırlayıb dünya ictimaiyyətinə təqdim edib. Bununla bağlı Beynəlxalq Məhkəməyə də müraciət olunub. Dünyanın nüfuzlu dairələri hələ ki, cinayətkarı məhkəməyə çəkməklə bağlı qəti addımlar atmır. Çox dövlətlər buna susqunluq nümayiş etdirdi. Sadəcə təəssüflərini bildirməklə kifayətləndilər. Halbuki bu, bəşəriyyətə qarşı edilmiş cinayətdir və 21-ci əsrdə heç bir şəhər bu cür uzaqmənzilli raketlərlə atəşə tutulmamışdı. Bu, açıq-aşkar bilərəkdən, qəsdən kütləvi ziyan vurmaq, kütləvi qətllər törətmək üçün keçirilən bir əməliyyat idi”. Ə.Nuriyev bildirir ki, Ermənistan müharibə başlayan ilk vaxtlarda döyüş meydanındakı məğlubiyyətini mülki vətəndaşlardan çıxmağa çalışdı. Onun fikrincə, bu, erməni faşist fəaliyyətinin növlərindən biridir.

“ *Ermənistanın Gəncədə mülki yaşayış binalarını bombalaması insanlıq əlehinə, bəşəriyyətə qarşı olan qatı cinayətdir*

“Bu, həm də ermənilərin mənfur mahiyyətini ifadə edib. Erməni faşistləri normal müharibə aparmaq qabiliyyətinə sahib deyillər. Faşist ermənilər təkcə Ağdamda, Cəbrayılda, Füzulidə yaşayışın heç bir izini saxlamayıb.

Ermənistan işğal boyu Azərbaycan ərazilərində törətdiyi vəhşiliklə kifayətlənməyib mədəni şəhərlərimizdən biri olan Gəncəni də raket atəşinə tutdular. Beynəlxalq təşkilatların hesabatlarında bu qeyd olunub. Eyni zamanda hesab edirəm ki, Avropa Hüquq və İnsan Haqları Məhkəməsi də bu prosesi icraata qəbul edib baxacaq”. Ə.Nuriyev hesab edir ki, bu insanlıq, bəşəriyyət əleyhinə olan cinayətlər cavabsız qalmamalıdır. Hüquqşünas hesab edir ki, bəşəriyyət, beynəlxalq qurumlar və dövlətlər bu məsələ ətrafında özünün məsuliyyətini dərk etməlidirlər.

✍ ***Tahirə***

# Vətəndaş cəmiyyəti institutları fəal olmalıdır

## Layihə

***Azərbaycanın müasir inkişafı dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Belə ki, respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir. Hazırda Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilir.***



Bu gün ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına cavab verən geniş hüquqi baza mövcuddur. Bu hüquqların həyata keçirilməsi ilə bağlı konkret hüquq müdafiə mexanizmləri fəaliyyət göstərir.

Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" isə insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına imkan yaradıb. Belə ki, yeni çağırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından 2011-ci ildə qəbul olunmuş Milli Fəaliyyət Proqramı ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində, əhalinin müxtəlif qruplarının, o cümlədən ən kövrək nümayəndələrinin hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı olub.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin və başqalarının hüquqlarının təmin edilməsində fəaliyyət istiqamətləri müəyyən olunur. Digər tərəfdən, Milli Fəaliyyət Proqramında insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə işlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Əhalinin hüquq biliklərinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyini ortaya qoyur. Beynəlxalq elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlığın təkmilləşdirilməsini, beynəlxalq sənədlərin, xüsusilə də İnsan Hüquqlarına dair Avropa Konvensiyasının, İşgəncələr Əleyhinə Konvensiyanın dövlət qulluqçuları, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən öyrənilməsini tələb edir. Proqrama uyğun olaraq, dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi və bu sahədə islahatların həyata keçirilməsi, əhaliyə elektron xidmətlərin göstərilməsinin təşkil edilməsi, hakimlərin və hakimliyə namizədlərin, hüquq-mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədris prosesində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə olunması, məhkəmə qərarlarının vaxtında və dəqiq icra edilməsi üçün icra işinin səmərəliliyinin yüksəldilməsi, habelə vəkillik institutunun gücləndirilməsi üzrə tədbirlərin davam etdirilməsi məsələləri mühüm istiqamətlər sırasındadır.

> *"İnsan hüquqları sahəsində atılan addımlar Azərbaycanın yaxşı hüquqi gələcəyindən xəbər verir*



**Rauf Zeyni,**
Milli QHT Forumunun prezidenti

Onu da vurğulamaq yerinə düşər ki, ölkəmizdə insan hüquqlarına verilən dəyərin göstəricisi olaraq Prezident İlham Əliyev 2007-ci ildə hər il iyun ayının 18-nin İnsan Hüquqları Günü kimi qeyd edilməsinə dair Sərəncam imzalayıb. Həmin tarixdən bugünədək insan hüquqları sahəsində böyük irəliləyişlərə nail olunub, müxtəlif qanunvericilik aktları qəbul edilib, ziddiyyət təşkil edən hallar aradan qaldırılıb. Bundan başqa, Ombudsman təsisatının yaradılması da Azərbaycan dövlətinin öz vətəndaşlarının hüquqlarının qorunmasına nə dərəcədə olan diqqətinin bariz nümunəsidir.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Milli QHT Forumunun prezidenti Rauf Zeyni bildirib ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu sahəsində çox mühüm işlər görülüb: "Azərbaycan insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunduğu, həmçinin, müdafiə edildiyi demokratik ölkələrdəndir.**

Bu sahə bütün dövrlərdə dövlətin diqqət mərkəzində olub. Prezident İlham Əliyevin rəhbərliyi altında bütün istiqamətlərdə islahatların aparılması, qanunvericiliyin təkmilləşdirilməsi, yeni qanunların qəbul olunması, eyni zamanda, məhkəmə-hüquq sistemində islahatların aparılması, probarsiya xidmətinin yaradılması, cəza siyasətinin humanistləşdirilməsi, əfv sərəncamlarının imzalanması və icra edilməsi Azərbaycan dövlətində vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunduğunun bariz nümunəsidir. Bu istiqamətdə atılan addımlar, həyata keçirilən islahatlat cəmiyyət, xüsusilə hüquq müdafiəçiləri tərəfindən həmişə yüksək qiymətləndirilib.

Bütün bu addımlar Azərbaycanın yaxşı hüquqi gələcəyindən xəbər verir. Bu mənada insan hüquq və azadlıqlarının Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulduğu kimi qorunması təbii ki, dövlətin prioritet istiqamətlərindən biridir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Milli QHT Forumunun prezidenti həmçinin vurğulayıb ki, bir sıra qeyri-hökumət təşkilatları da bəhs edilən ali vəzifənin yerinə yetirilməsinə xüsusi töhfələr verməkdədir: "Eyni zamanda, Ombudsman təsisatı öz fəaliyyəti ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması işinə önəmli töhfələr bəxş edir.

Ümumiyyətlə, Ombudsman təsisatının bu istiqamətdə gördüyü işlər sözügedən sahədə ciddi nailiyyətlərin əldə edilməsinə təkan verən faktordur. Eyni zamanda, yerli qht-lər bu məsələdə fəal şəkildə rol oynayırlar. Çünki cəmiyyətdə islahatlar aparılsa da, bəzən hüquq pozuntularına da rast gəlirik, xüsusilə bəzi məmurlar vətəndaşların hüquqlarını kobud şəkildə pozurlar. Son dövrlərdə biz bununla bağlı bir sıra QHT-nin iştirakçılığı ilə İctimai Nəzarət Mərkəzi yaratmışıq. Bu mərkəz insanların hüquq və azadlıqlarını müdafiə etməkdə maraqlıdır.

Biz bütün dövrlərdə sosial mövzulardan tutmuş insan hüquqlarına qədər bütün mövzuları daim ictimai müzakirəyə çıxararaq diqqətdə saxlamışıq. Hətta biz orduda da müəyyən görüşlərin keçirilməsinə, xüsusilə təmas xəttinə yaxın ərazilərdə yerləşən hərbi hissələrə səfərlərin təşkil olunmasına nail olduq və ictimai monitorinqlər həyata keçirdik. Bu da xalqla ordu arasında münasibətlərin inkişaf etdirilməsində mühüm rol oynadı. Bu gün də biz ölkə Prezdentinin şəffaflıq və ictimai nəzarətə çağırışı ilə bağlı ictimai nəzarətin koordinasiya mərkəzini yaratmışıq. Artıq bu fəaliyyət də öz effektini verib və vətəndaşları maraqlardıran, onları narahat edən bir neçə məsələnin ictimai müzakirəsini təşkil etmişik. Elə ilk müzakirəmiz "İctimai nəzarətin təmin olunması və qarşıda duran vəzifələr" mövzusunda keçirilib.

Bundan başqa, bank xidmətlərində vətəndaşları və sahibkarları narazı salan məqamlarla, gömrük sahəsində problemlər və onların həlli yolları, narkomaniyaya qarşı mübarizə və vətəndaş cəmiyyəti kimi mövzuların müzakirəsi təşkil olunub. Konfranslarda bir sıra dövlət qurumlarının, QHT-lərin və KİV-lərin nümayəndələri iştirak ediblər. Qarşıdakı aylarda isə təhsil, istehlakçı hüquqları, sosial siyasət və onun icra vəziyyət, eləcə də digər məsələlərlə bağlı ictimai müzakirələr təşkil edəcəyik. Bununla da biz üzərimizə çox böyük məsuliyyət götürmüş oluruq. Ona görə ki, ölkə Prezidenti dəfələrlə çıxışlarında çağırış edib ki, ictimai nəzarət və şəffaflıq çox vacib məsələdir. O, bu məsələdə vətəndaşları və vətəndaş cəmiyyəti institutlarını fəal olmağa çağırıb. Biz də baxmayaraq ki, müəyyən maliyyə çətinliyimiz var, məsuliyyətimizi yaxşı başa düşürük və insan hüquq və azadlıqlarının təmin olunmasında, vətəndaş cəmiyyəti quruculuğunda dəstəyimizi tam gücümüzlə davam etdiririk".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Avropada qazın 1 000 kubmetrinin qiyməti 1 600 ABŞ dollarına yaxınlaşıb. Məlumata görə, 6 oktyabr tarixində Avropanın ən likvid virtual satış mərkəzi sayılan Niderlandın "Title Transfer Facility"də (TTF) noyabr fyuçerslərinin qiyməti 1 596,8 dollar təşkil edib. Xatırladaq ki, bu həftə TTF indeksi ilə qazın min kubmetrinin qiyməti ilk dəfə olaraq 1 500 dollar həddini ötüb.

■ Oktyabrın 8-də Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənişinin həyata keçirilməsi nəzərdə tutulub. Bu barədə hafta.az-a Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentindən məlumat verilib. Qeyd edilib ki, güzəştli şərtlərlə pensiya hüququna malik pensiyaçılar istisnadır.

■ Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yenilənmiş hesabatına görə, bu il Azərbaycanda istehlak qiymətləri indeksinin ortaillik artımı 5,5% təşkil edəcək. 2022-ci ildə ortaillik inflyasiya səviyyəsi 4,5%, 2023-cü ildə isə 4,1%-dək yavaşlayacağı proqnozlaşdırılır. Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının faiz dəhlizinin parametrlərinə dair sonuncu sənədində ölkədə 2021-ci ildə inflyasiyanın 4±2% diapazonunda formalaşacağı deyilir.



■ 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə mərhələsində çıxış etmək üçün hazırda Belçikada səfərdə olan Azərbaycan milli komandasının 3 futbolçusunun - Həmzəali Mikayılov, Adəm Topalov və İbrahim Ağayarov - COVID-19 testi pozitiv nəticələnib. Bununla əlaqədar, Belçikanın daxili qanunları nəzərə alınaraq, oktyabrın 6-da keçirilməsi nəzərdə tutulmuş Azərbaycan - Norveç oyunu qeyri-müəyyən müddətə təxirə salınıb.

■ Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Səbail Rayon Polis İdarəsinə yeni rəis təyin edib. Nazirin əmri ilə Mingəçevir Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Hikmət Qasımov vəzifəsindən azad edilərək Səbail RPİ-yə rəis təyin edilib. H.Qasımov daha əvvəl Sumqayıt RPİ-nin rəis müavini, ondan öncə isə paytaxtın Nərimanov Rayon Polis İdarəsində Cinayət Axtarış Şöbəsinin rəisi olub.



■ Rusiya prezidenti Vladimir Putin ölkənin LDP lideri Vladimir Jirinovski ilə görüşüb. Bu barədə TASS agentliyinə dövlət başçısının mətbuat katibi Dmitri Peskov deyib. "Görüşdə sentyabrda ölkədə keçirilən parlament seçkilərinin nəticələri, həmçinin LDP fraksiyasının gələcək iş planı müzakirə olunub", - Peskov qeyd edib.

■ Ukrayna Silahlı Qüvvələrinin "Toçka-U" taktiki raket sistemlərindən ibarət ekipajları Krımla sərhəddə təlimlər keçirib. Hərbçilər "Toçka-U"nun ekipajları raket atışları üçün ilkin məlumatların hazırlanması, komplekslərin səyahət mövqeyindən döyüş mövqeyinə köçürülməsi, habelə raketin nəqliyyat vasitəsindən yenidən yüklənməsi üzrə uğurlu manevrlər nümayiş etdiriblər.

## Mövqe

# Suqovuşandan Xocalı qatilinə verilən mesaj



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

***2020-ci il sentyabrın 27-dən əks-hücumla başlayan Vətən Müharibəmiz işğalçı Ermənistanın başında duran cinayətkarların tək Azərbaycan üçün deyil, bəşəriyyət, insanlıq üçün qara ləkə olduğunun sübuta yetirdi.***

Məhz Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev işğaldan azad olunan Cəbrayılda bir daha Azərbaycana qarşı ədalətsiz mövqe saxlayan güclərin öz gözlərini açıb erməni cəmiyyətinin də hansı rəhbərlə, hansı ağlasığmaz cinayətlərə əlbir olduğunu önə çəkmiş oldu.

■ **Bunu hafta.az-a Milli Məclisin deputatı Elman Məmmədov deyib. Deputat Azərbaycan torpaqlarının işğalında, ölkəmizə qarşı törədilən soyqırımı, hərbi cinayətlərlə yadda qalan Serjik Sarkisyanın kim olduğunun istər erməni ictimaiyyətinə, istərsə də dünyaya verilən sərt mesajlarla çatdırıldığını bildirib.** "Prezidentimiz dedi ki, Serjikin hərbi cinayətkar olmasını təkcə o demir, bunu bölgə ilə tanış olan bütün qərəzsiz və müstəqil politoloqlar, jurnalistlər deyirlər.

O, Serjikin britaniyalı jurnalistə verdiyi müsahibəsini xatırlatdı. Serjik orada da demişdi ki, Xocalı soyqırımını şəxsən özü törədib. Bunun da izahatını vermişdi ki, azərbaycanlılar bilməlidirlər, Ermənistan ordusu dinc əhaliyə qarşı silah qaldıra bilər".

E.Məmmədov bildirir ki, Prezidentin Serjik Sarkisyan haqqında səsləndirdiyi sərt fikirlərin hamısı həqiqətdir. "Məni bu erməni terrorçusunu şəxsən tanımışam. Biz 80-ci illərin əvvəllərində, o, komsomol -partiya işində olduğu dövrdən öncə də bir-birimizi tanımışıq. Serjik keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayətində" heç bir xüsusi çəkisi olmayan, digərlərindən heç bir üstünlüyə malik olmayan sıradan bir erməni idi. 1988-ci illər ərəfəsində məlum oldu ki, Serjik, Robet Köçəryan və digərləri SSRİ Təhlükəsizlik Komitəsi tərəfindən Azərbaycanda Dağlıq Qarabağ problemini yaratmaq üçün hazırlanmış bir qrupdur. Bunların varlığı və kimliyi 1988-ci ilin fevralından sonra üzə çıxdı. O dövrdən sonra Serjik, Köçəryan tədricən yüksək vəzifələrə gəlməyə başladılar. Bu da birbaşa Moskvanın göstərişi, iradəsi ilə baş verirdi. Yəni, Serjik Sarkisyan və onun kimilər bir elm, dövlət adamı, siyasətçi kimi ortaya çıxmadı. Bunlar Azərbaycan xalqının qəddar düşməni kimi, qatillər, cinayətkarlar, terrorçular kimi ortaya çıxdılar. Bunlara qatı türk düşməni, qatı cinayətkar olduqlarına görə, daha bacarıqlı terrorçu olduqlarına görə vəzifələr verilib. Serjikin pillə-pillə vəzifədə yüksəlməsinin səbəbi onun qəddarlığı, türklərə qarşı qatı barışmaz düşmənçiliyi, qatilliyi idi. Xocalı soyqırımının törədilməsində həm səhra komandiri kimi, həm siyasi rəhbər kimi öndə gedən 3-4 nəfərdən biri Serjik Sarkisyan idi. Məharətlərinə görə Moskva tərəfindən mükafatlandırılaraq, öncə "Dağlıq Qarabağ"da, sonra Ermənistanada pillə-pillə vəzifələrə gətirildi.

> *"Serjikin pillə-pillə vəzifədə yüksəlməsinin səbəbi onun qəddarlığı, türklərə qarşı qatı barışmaz düşmənçiliyi, qatilliyi idi"*

Cənab Prezident onun haqqında çox düzgün fikirlər söylədi. O, cinayətkar, ömrüboyu oğru, saxtakar, xain, satqın, fərari kimi tanınıb. İnşAllah vaxt gələcək, Serjik Azərbaycan qanunları qarşısında cavab verməli olacaqdır".

E.Məmmədov hesab edir ki, Prezidentin həmin çıxışında cinayətkar Sarkisyana verilən mesajlar tək onun özünə deyil, bütün ermənilərə, onları haqsız mühafizə edənlərə və aparılan cinayətkar siyasətə qarşıdır. Deputat bildirir ki, Prezident Serjik Sarkisyana əbəs yerə demir ki, "Qorxmursansa gəl, mən buradayam".

"Serjik bir neçə il bundan öncə Gorusa gəldi və orada erməni gəncləri ilə böyük bir tədbir keçirdi. Oradan Ağrı dağını gənclərə göstərdi və belə bir ifadə işlətdi: "Biz Qarabağı aldıq, biz bu məsələni həll etdik. Sizin də qarşınızda bax, o dağ, o dağın o tərəfindki ərazilər fəth eləmək durur". O vaxt Serjik Sarkisyan Azərbaycana meydan oxuyurdu. Prezidentliyi dövründə dəfələrlə bəyan eləmişdi ki, "Ehtiyatda olun, bizimlə oynamayın, biz əlavə əraziləri də işğal edəcəyik. Bakıya gəlib çıxacağıq, siz bizim qarşımızda dura bilməzsiniz.

Biz döyüşkən, qalib, qorxmaz, qəhrəman xalqıq". Bu gün də Prezidentimiz onu çağırır ki, əgər sən o dediyin sözlərin arxasında durursansa, qorxmaz, qəhrəman xalqın nümayəndəsisənsə, lidersənsə, Bakıya gəlməklə bizi hədələyirsənsə, indi kişiliyin çatır gəl bura, mən buradayam. Prezident bəyan etdi ki, bu torpaqların əsl sahibləri bizik. Biz də bu gün bu torpaqlardayıq. Gəlmirsənsə, demək, sən qorxaqsan, sən dələduzsan, saxtakarsan, cinayətkarsan, oğrusan".

***Tahirə Qafarlı***

# Rusiya - Türkiyə qarşıdurmasını istəyənlər çoxdur



**Rauf Məmmədov,**
AMEA-nın elmi işçisi,
politoloq

## Müsahib

***44** günlük Vətən Müharibəsindəki qələbəmizin ildönümünü qeyd etdiyimiz bu günlərdə bölgəmizdə çox maraqlı məqamlar yaşanır. İranın Azərbaycana qarşı sərgilədiyi destruktiv mövqe, Azərbaycan və Ermənistan liderlərinin görüşməyə hazır olduqlarını bəyan etməsi, Soçidə Rusiya-Türkiyə danışıqları və s. Bu və digər məqamlarla bağlı hafta.az-ın suallarını AMEA-nın elmi işçisi, politoloq Rauf Məmmədov cavablandırıb.*

***- Rauf müəllim, bu gün regiondakı vəziyyət hansı yeni mərhələdədir? Burada Rusiya ilə Türkiyənin uzlaşan mövqeyi nədir?***

- Soçi görüşündə böyük irəliləyişin olduğuna inanmıram, xüsusilə, Qarabağ məsələsində. Tərəflər sadəcə bir-biri ilə gərgin tərəfdaşlıq əlaqələrini qorumaq və toqquşmadan özlərini zəmanət altına almaq istəyirlər. Bölgədə Rusiya və Türkiyənin toqquşmasını istəyən güclər çoxdur. Onların məqsədi Avrasiya bölgəsində hegemonluq etmək istəyən hər iki ölkəni qarşı-qarşıya gətirməklə zəiflətmək, parçalamaq və nəticədə, Avrasiya bölgəsinə hakim olmaqdır. Avrasiya bölgəsinə hakim olmaq istəyən əsas güc Çindir. Bu toqquşmanı ABŞ və Fransa da istəyir.

Cənubi Qafqazda Rusiya onlarla bir araya gəlmək istəmir. Onlar bölgəyə daxil olsalar, Rusiyanın Qafqaz üzərində nəzarəti əldən çıxacaqdır. Onsuz da onlar artıq Gürcüstan və Ermənistanda öz mövqelərini tədricən gücləndirirlər.

Bu durum Türkiyəyə də sərf etmir. Bu baxımdan, Türkiyə Rusiya ilə xoş münasibətlər saxlamaq məcburiyyətindədir. Eynilə Rusiya da Türkiyənin Cənubi Qafqazda varlığına dözməyi ən əlverişli variant hesab edir. Əks təqdirdə, Cənubi Qafqaz nə Rusiyanın, nə də Türkiyənin olacaq.

Bunları nəzərə alsaq deyə bilərik ki, Soçi görüşündə Putin və Ərdoğan Avrasiyada birgə əməkdaşlıq etməyi və heç bir vəchlə toqquşmaya getməyəcəklərini, hər cür təxribatlara uymayacaqlarını müzakirə ediblər. Qarabağ məsələsinə gələndə, söhbətin əsas mövzusunun Zəngəzur dəhlizi olduğunu düşünürəm. Bu məsələdə ortaq maraqlar müzakirə olunub.

***- Necə hesab edirsiniz, ABŞ, Fransa yenidən Minsk Qrupu formatında regionda aktivləşəcəksə, Ermənistan sülh sazişinin bağlanmasında maraqlı olacaq?***

- Minsk qrupunun həmsədr dövlətləri olan Rusiya, ABŞ və Fransa erməni mövqeyindən çıxış edirlər.

Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac da yoxdur. Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq öz torpaqlarını azad etdi. ABŞ və Fransa oyundan kənarda qalmaq istəmirlər. Onlar da Cənubi Qafqazdan öz paylarını istəyirlər. Əgər öz paylarını ala bilsələr və ya bu paylar onlara verilsə, bəlkə sülh sazişi bağlana bilər. Əks təqdirdə, onlar geri çəkilməyəcəklər. Onların dərdi sülh deyildir, iqtisadi və geosiyasi maraqlardır.

44 günlük savaşda Ermənistanın tam məğlubiyyəti, Rusiyanın nüfuzunu heçə endirdi. Bundan sonra Ermənistanda Rusiyanın tədricən çıxarılması prosesi başlayacaq. Rusiya bu prosesin qarşısını almaq üçün, Azərbaycan və Ermənistan arasında sülhün olmasını istəmir. Sülh sazişindən sonra Ermənistan Azərbaycan və Türkiyə ilə yaxınlaşacaq, iqtisadi inkişafa nail olacaq və Türkiyə vasitəsilə Avropaya çıxacaqdır. Belə olan halda, Rusiyanın iqtisadi və hərbi əhəmiyyəti sıfıra enəcək və rus ordusunun Ermənistandan çıxarılması məsələsi gündəmə gələcəkdir. Buna görə də, Rusiya, Xankəndi və ətraf ərazilərdə möhkəmlənmək yolunu seçdi. Rusiya, Qarabağ ermənilərindən bir separatçı amil kimi yalnız Azərbaycana qarşı deyil, Ermənistanın özünə qarşı da istifadə edə bilər.

Fransa və ABŞ Cənubi Qafqazda möhkəmlənmək üçün ya Türkiyəni seçməli, ya da yeni bir koridor açmalıdırlar.

***- Azərbaycanın qələbədən sonra regiondakı əsas addımı Zəngəzur dəhlizi ilə bağlıdır. Dəhlizin açılmasında maraqlı və maraqlı olmayan bu qüvvələr nəyə çalışır? Bu prosesdə İran hansı mövqedə dayanır və nədən ehtiyat edir?***

> “
> *Ermənilərin bir qismi öz evlərini satıb gedəcək, yerdə qalanlar isə Azərbaycan vətəndaşları kimi yaşayacaqlar*

- Zərgəzur koridorunun açılması İrana zərərdir. Naxçıvanlıların İran vasitəsilə öz evlərinə getmələri, İrana iqtisadi baxımdan sərfəli idi. Ermənistanın Türkiyə və Azərbaycan ilə əməkdaşlığa getməsi və sərhədlərin açılması, İranın bu bazarı itirməsi deməkdir. Üstəlik, İran beynəlxalq narkotrafikin tranzit ölkəsi kimi, bu koridor vasitəsilə böyük gəlir əldə edirdi. Bu koridor vasitəsilə Qara dənizə çıxış əldə edən İran, bu və ya digər şəkildə sanksiyalar dövründə özünün iqtisadi sistemini qura bilmişdir. Azərbaycan Ordusunun Qarabağı azad etməsi və Gorus-Qafan yolunu nəzarətə götürməsi, onun bu çıxış nöqtəsini qapatdı. İranın bu istiqamətdə Ermənistana və daha sonrakı ərazilərə daşıdığı yüklər 30 il işğal dövründə dayanmadan davam etmişdi. Azərbaycanın son bir neçə ay ərzində nəzarəti dövründə bu yüklər arasında 0.5 ton narkotik də ələ keçirilmişdir. Mətbuatda bu məlumat vardır. Bu baxımdan, Qarabağın azad olunması İranın iqtisadi maraqlarına zərbə vurdu.

Zəngəzur dəhlizi, İranın Qara dənizə çıxış koriduru layihəsinə zərbə vurdu. Əgər Türkmənistan qazı Azərbaycan vasitəsilə Türkiyəyə ötürülsə, bu İran qazına böyük rəqabət təşkil edəcəkdir.

Digər tərəfdən, Türkiyə və Azərbaycan bölgədə 6-lıq formatı çərçivəsində əməkdaşlıq təklif etdilər. Bu formatda əməkdaşlıq bütün bölgə ölkələrinin maraqlarını təmin etməlidir. İranın Azərbaycan və Türkiyəyə qarşı aqressiv münasibəti onu göstərir ki, bu təklif İranı qane etmir.

Bəlkə də İranın arxasında dayanan Fransa və Çin bunu istəmirlər. Əslində, onların hamısı eyni fikirdədirlər. Zəngəzur dəhlizi iqtisadi layihədən daha çox, geosiyasi bir layihədir. Bu layihə ilə Türkiyə-Azərbaycan və Orta Asiya ölkələri arasında iqtisadi, siyasi, mədəni birlik məsələsi güclənir. Bu isə, nə İrana, nə Çinə, nə də Fransaya sərf edir. Əslində, bu Rusiyaya da sərf etmir. Rusiya, Türkiyə və Çin amilini tərəzidə ölçür və daha çox Türkiyə amili ilə razılaşmağa vadar olur. Buna görə də Rusiya Türkiyə ilə toqquşmaqdan imtina etdi.

***- Rauf müəllim, nəhayət erməni silahlılarının Xankəndi, Xocalı, Ağdərədən çıxarılması hansı mərhələdə baş verəcək. Rusiya, eləcə də Paşinyan buna hazırdırmı?***

- Erməni silahlılarının Xankəndi, Xocalı, Ağdərədən çıxarılması baş verməlidir. Bu məsələ Soçi danışıqlarında da müzakirə oluna bilərdi. Bu, Rusiyanın 10 noyabr sazişində üzərinə götürdüyü öhdəlikdir. Burada Paşinyanlıq bir iş yoxdur. Sazişə görə, ərazidə mülki əhali qalmalı və onların təhlükəsizliyi təmin olunmalıdır. Azərbaycanlıların da bu ərazilərə köçürülməsi vaxtı çatıbdır. Əsas məsələ budur. Bizim əhali ora köçəndən sonra dövlət institutları da orada yer alacaqdır.

Ermənilərin bir qismi öz evlərini satıb gedəcək, yerdə qalanlar isə, Azərbaycan vətəndaşları kimi Azərbaycan qanunları ilə yaşayacaqlar. Bu mühit getdikcə Azərbaycanın mövqeyini orada gücləndirəcək və rus sülhməramlılarının orada qalmasının əhəmiyyətini ortadan qaldıracaqdır. Beynəlxalq təşkilatlar da mövcud durumla barışmalı olacaqlar. Orada azərbaycanlıların sayı ermənilərdən dəfələrlə çox olacaq və insan hüquqları məsələsi yüksək səviyyədə təmin olunacaqdır. Qazanan biz olacağıq. Rusiya bölgəni hərbi güc kimi tərk edəcəkdir. Bölgə müxtəlif iqtisadi maraqların kəsişdiyi bir məkan kimi, daha çox beynəlmiləl xarakter alacaqdır.

✍ ***Tahirə***

# Müharibə əlillərinə indiyədək 7350 avtomobil verilib

## Sosial



**Fazil Talıblı,**
ƏƏSMN-in mətbuat xidmətinin rəhbəri

***D**övlətimiz hər zaman torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin və müharibə əlillərinin sosial şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində çox mühüm işlər görür. Bu işlər sırasında onların ev və avtomobillə təmin olunmasına xüsusi diqqət yetirilir. Bəs görəsən, aralarında təxmini 30 il qədər fərq olan Birinci və İkinci Qarabağ Müharibəsi şəhid ailələri və qazilərinin ev və maşınla təmin edilməsi hansı ardıcıllıqla aparılır? Proses paralel olaraq həyata keçirilir, ya necə? Bu və digər suallara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı hafta.az-a müsahibəsində aydınlıq gətirdi. Müsahibəni sizlərə təqdim edirik:*

***- Fazil bəy, hazırda ev növbəsində olan neçə Birinci Qarabağ savaşı əlili və şəhid ailəsi var?***

- Bildiyiniz kimi, Azərbaycan Respubikasının Prezidenti İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2021-2025-ci illərdə 11 min imtiyazlı vətəndaşın mərhələli şəkildə mənzil və fərdi evlə təmin edilməsi nəzərdə tutulur. Onlar həm 2014-2019-cu illərdə uçota alınmış şəxslər, həm də 2020-ci ildə hərbi əməliyyatlarda, o cümlədən Vətən müharibəsində şəhid olanların ailələri və bu müharibə ilə əlaqədar əlilliyi olanlardır. Hazırda 11 min imtiyazlı şəxsdən 3 min nəfərin 2021-ci ildə mənzillə və fərdi evlə təmin olunması işləri aparılır. Onlardan da 1650-nə artıq mənzil verilib.

***- Bəs, bu günə qədər neçə İkinci Qarabağ müharibəsi əlili və şəhid ailəsi evlə təmin edilib?***

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 11 minə yaxın şəhid ailəsi və müharibə əlilinə mənzil verilib.

***- Bu yaxınlarda Milli Məclisdə belə bir məsələ müzakirə edildi ki, Vətən Müharibəsindən sonra Birinci Qarabağ Müharibəsi qazisi və şəhid ailələrinə dəstək nisbətən arxa plana keçib. Hazırda birinci və İkinci Qarabağ döyüşlərinin iştirakçılarının evlə, yaxud da maşınla təmin edilmədə hansısa ardıcılıq varmı?***

- Bu ilin əvvəlindən mənzillə təminat proqramı Birinci Qarabağ müharibəsində şəhid olanların ailələri və həmin müharibənin əlilləri ilə bərabər, 2020-ci ildə hərbi əməliyyatlarda, o cümlədən Vətən müharibəsində şəhid olanların ailələri və bu müharibə ilə əlaqədar əlilliyi olanları da əhatə edir. Yəni paralel şəkildə bu işlər aparılır. Cari ilin ötən dövründə həmin 1650 mənzil təqdim edilənlər sırasında da həm həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olanların ailələri və hər iki müharibənin əlilləri var.

> “
> *Cari ilin ötən dövründə həmin 1650 mənzil təqdim edilənlər sırasında da həm həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olanların ailələri və hər iki müharibənin əlilləri var*

Həmçinin avtomobillə təminat proqramı həm Birinci, həm də İkinci Qarabağ müharibəsi əlillərini əhatə edir və bütün bu işlər ardıcıl şəkildə yerinə yetirilir. Bu il də 150-dək müharibə əlillinə avtomobil verilib ki, onların sırasında həm Birinci, həm İkinci Qarabağ müharibəsi əlilləri var. Ümumən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə indiyədək 7350 avtomobil verilib.

✍ ***Banu***

# Suqovuşan - Ordumuzun misilsiz qəhrəmanlığı



**Tərtər rayonunun Suqovuşan kəndinin işğaldan azad edilməsinin ildönümünü qeyd etdik. Sentyabrın 27-də Azərbaycan Ordusunun mövqelərinin və yaşayış məntəqələrinin Ermənistan Silahlı Qüvvələri tərəfindən iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsilə intensiv atəşə tutulmasına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb.**

Hərbi əməliyyatlarda Suqovuşan döyüşü Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində şimal-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərindən biri sayılır.

■ **Bu istiqamətdə hafta.az-a danışan hərbi ekspert Şair Ramaldanov Suqovuşanın azad olunmasının əhəmiyyəti barədə maraqlı nüanslara diqqət çəkib.**

Qeyd edək ki, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı Suqovuşanın tarixi adı bərpa olunub.

Şair Ramaldanov bildirir ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi istiqamətində apardığı bütün əks-hücum əməliyyatları ümumi plan çərçivəsində təşkil olunmuşdu.

“Əməliyyatlar bir mərkəzdə - Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident, cənab İlham Əliyevin şəxsən özünün rəhbərliyi altında keçirilirdi. Azərbaycan Ordusunun hər hansı bir istiqamətdə apardığı döyüş əməliyyatları müəyyən plan üzrə əvvəlcədən işlənib hazırlanmışdı. Bütün istiqamətlər üzrə əməliyyatlar müəyyənləşdirilmişdi. Müharibə Planı Azərbaycanın əsas sənədlərindən biri olmuş və daim üzərində dəqiqləşdirilmələr aparılmışdır. Prezident öz müsahibələrində də demişdir ki, biz o planı mütəmadi olaraq dəqiqləşdirir, düzəlişlər edirdik. O cümlədən Suqovuşanın işğaldan azad edilməsi ümumi hərbi planın bir tərkib hissəsi olaraq keçirilib. Suqovuşanın azad edilməsi birinci növbədə onun ətrafındakı strateji yüksəkliklərin tutulması və özünün azad edilməsi ilə Ağdərə və Ağdam istiqamətlərindəki yolun açılması demək idi”. Ekspert qeyd edir ki, Suqovuşanın azad olunması planı və o əməliyyatın hərbi elmin tələblərinə uyğun olaraq aparılması Azərbaycan Ordusunun peşəkarlığını göstərir. Eyni zamanda bu, Azərbaycan Ordusu müasir silahlarla silahlanaraq qarşıda olan düşmənin müqavimət nöqtələrini darmadağın etməsi ilə müşahidə olunur.

“Suqovuşan istiqamətində gedən döyüşlər sızma hərəkəti ilə keçirilmişdir. Ordumuz düşməni mühasirəyə salaraq, düşmənin ordusunda vahimə yaradıb daxilində idarəçiliyi pozaraq dqşmənin mütəşəkkil şəkildə müqavimət göstərməsinə maneə törətmişdir. Əlbəttə, Suqovuşan Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığı və misilsiz qəhrəmanlığı nəticəsində azad edildi. Onun digər əhəmiyyəti ondan ibarətdir ki, Suqovuşan bütün cəbhə boyu mərkəzdə olan bir istiqamətdir. Düşmən prisnip etibarilə həmin istiqamətdə mövqe tutaraq Ağdam istiqamətində ehkam yaratmaq üçün möhkəmlənirdi. Düşmən məhz əks-hücumun o istiqamədə vurulacaını gözləyirdi. Suqovuşunın azad edilməsi və düşmənin əlavə qüvvələrinin o istiqamətdə yerləşdirilməsi cənub istiqamətdə hücumun uğurlu olmasına imkan yaratdı. Düşmən Azərbaycanın cənub istiqamətindən hücumu inkişaf etdirəcəyini gözləmirdi. Düşmən hesab edirdi k, cənub istiqaməri bizim üçün əsas istiqamət deyil”. Azərbaycan Ordusunun hücum taktikasına və aldadıcı manevrlərinə diqqət şəkən ekspert, Suqovuşanın azad olunmasını həm staraeji - taktiki, həm ərazi baxımdan mühüm əhəmiyyət kəsb etdiyini deyib.

“Böyük qüvvənin Suqovuşan və onun ətrafında - Ağdam, Ağdərədə cəmlənməsi və saxlanması, cənub istiqamətində düşmənin müqavimətini gücləndirə bilməməsi kimi göstətilə bilər. Bu da Azərbaycanın 21-ci əsrin tələblərinə cavab verən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının məhz sərkərdarlıq məharətindən xəbər verir”.

✍ ***Tahirə***


# “Nar”ın baş sponsorluğu ilə Azərbaycan çempionu titulu uğrunda yarış başlayır

®



***“Nar”ın baş sponsorluğu ilə ölkənin ən baxımlı intellektual yarışı olan “Breyn Rinq”in 18-ci mövsümü start götürür.***

Bilik yarışının builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda olimpiya sistemi üzrə “Bilik” kuboku uğrunda mübarizə aparacaq. “Bilik” kubokunu qazanan komanda isə ötən mövsüm qalib olmuş “Nar” komandası ilə “Breyn Rinq 2021” Azərbaycan çempionu titulu uğrunda mübarizə aparacaq. Oktyabrın 1-dən start götürəcək yarış hər həftənin cümə günü saat 19:20-də İctimai Televiziyada yayımlanacaq. Qeyd edək ki, mobil operator builki mövsümdə də “Nar” və işğaldan azad edilmiş bölgələrin intellektuallarının birləşdiyi “Qarabağ” komandalarını dəstəkləyəcək. Televiziya tamaşaçılarını da yarışa cəlb etmək məqsədilə, bu il də “Nar”ın “Twitter <https://twitter.-com/salam_nar>” səhifəsində yarış keçiriləcək.

Hər zaman gənclərin intellektual inkişafına xüsusi önəm verən “Nar”, artıq 9 ildir ki, “Breyn Rinq” intellektual yarışının baş sponsorudur. “Nar”ın digər layihələri haqqında ətraflı nar.az səhifəsində tanış olmaq olar.



# “Bakcell”dən gənclərin təhsilinə dəstək

®

**Bakcell şirkəti “SOS Uşaq Kəndləri-Azərbaycan” Assosiasiyası ilə birlikdə valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə dəstək göstərir.**

bakcell

Uzunmüddətli əməkdaşlıq çərçivəsində həyata keçirilən daha bir layihə - “COVİD-19 pandemiyası zamanı gənclərin təhsilinin kəsintisiz davam etməsinə dəstək” təşəbbüsü sayəsində 30 nəfər gənc karantin zamanı təhsillərini onlayn davam etdirə bilib. Bu məqsədlə Bakı və Gəncədə yerləşən SOS Uşaq Kəndləri lazımı sayda kompüter və internet bağlantısı ilə təchiz olunub. Nəticədə, təşkilatın himayəsindəki gənclərin təhsil və davamiyyət göstəriciləri pandemiyadan öncəki 2018/2019-cu təhsil ilinin göstəricilərini üstələyib.

“COVİD-19 bütün dünyanı dəyişib və biz KSM Strategiyamızın ən prioritet istiqamətlərindən olan gənclərin təhsilinə töhfə vermək üçün yeni üsullar tapmalı olduq. Biz daha çox uşağın keyfiyyətli təhsil alması üçün əlimizdən gələni edirik, çünki uşaqlar bizim gələcəyimizdir” deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, Bakcell 2009-cu ildən etibarən “SOS Uşaq Kəndləri - Azərbaycan” Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən “Öz biznesinə başla və təkmilləşdir” layihəsi “Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb. Layihə assosiasiyanın himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə icra olunub. Layihədə iştirak edən gənclər “Bakcell”in maliyyə dəstəyilə öz kiçik bizneslərini qurublar.

Bakcell şirkətinin həyata keçirdiyi “Bakcell Stars” KSM proqramı ölkənin ən geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramlarından biridir. Proqramın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənclər üçün bərabər hüquq və imkanların yaradılması, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi ilə yanaşı gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır.

# "İran islamçıların iqtidarda qalmasına çalışır..."

## Müsahib

***Bazar günü İraqda parlament seçkiləri keçiriləcək. Təbii ki, seçiləcək millət vəkillərinin oturduğu parlament də yeni hökumti formalaşdıracaq. Əhali uzun illərdir firavanlıq, asayiş arzusundadır, bu seçki həmin arzularına çatdıra biləcəkmi insanları? Üstəlik, bu ölkə əhalisinin 10 faizinə bərabər olan 4 milyonluq türkmən xalqı seçkidən sonra sıxıntılarından qurtula biləcəkmi, ən azından milli kimliklərini hökumətə tanıda biləcəklərmi, yaşadıqları tarixi şəhərlərində ən azı yerli idarəetmədə rol ala biləcəklərmi? Bütün bu suallara cavab almaq üçün İraqın keçmiş millət vəkili, Türkməneli Partiyasının sədri, türkmən xalqı arasında böyük nüfuz sahibi Riyaz Sarıkahya ilə söhbətləşdik. Gəlin müsahibəyə birlikdə nəzər salaq:***



**Riyaz Sarıkahya,**
Türkməneli Partiyasının sədri

- Bazar günü keçiriləcək seçkilərə İraqdakı türkmən partiyaları blok şəklində qatılacaq. Birləşmiş İraq Türkmənləri Cəbhəsi adı altında yaratdığımız ittifaqa İraq Türkmən Cəbhəsi, Türkməneli Partiyası, Ədalət Partiyası, Haqq Partiyası, Qərar Partiyası, İradə Partiyası, eləcə də Türkmən Vəfa Hərəkatı, Türkmən Əməliyyat Birliyi və Millətçi Hərəkat Birliyi daxildir. Bu doqquz siyasi partiyanın birlikdə hazırladığı seçki siyahısı əvvəlkilərdən çox fərqlənir. Əslində, seçki prosesinin özü də dəyişib. Əvvəlki seçkilədən fərqli olaraq bu dəfə vilayət və rayonlar daha çox seçki dairələrinə bölünmüş vəziyyətdədir. Məsələn, ötən seçkidə Kərkük və Mosul hər biri bir seçki dairəsi idisə, indi Kərkük 3, Mosul isə 8 dairəyə bölünüb. Çox qarışıqlıq var. Kəndin yarısı bu dairədə, digər yarısı başqa dairədə səs verəcək. Hesab edirik ki, bu dəfə islamçı şiə partiyaları xeyli səs itirəcəklər. Əvəzində isə demokratik və mədəni partiyalar səslərini artıracaqlar. Eləcə də sünnilər bu seçkidə əvvəlkindən daha çox səs alacaqlar. Onlara Ərəbistandan, Körfəz ölkələrindən böyük dəstək var. Bu seçkilər İraqın böyük problemlərini azalda bilməyəcək. O cümlədən, türkmən partiyaları olaraq bizim də bu seçkidən elə böyük gözləntilərimiz yoxdur. 4 milyonluq türkmən əhalisi İŞİD-in baş qaldırdığı vaxtlar öz torpaqlarından qaçqın düşərək İraqın dörd bir yanına səpələndilər, böyük bir hissəsi də xaricə köçdü. İŞİD illərdir məğlub edilsə də, qaçqınların çoxu hələ də evlərinə qayıtmayıb. Siyasi təsir imkanları böyük mərkəzlər var ki, türkmənlərin seçkili orqanlarında yer almamasına çalışırlar. Hazırda onlar İraqda sadəcə üç qüvvəni - şiə, sünni və kürdləri təşkilatlandırırlar. Təəssüf ki, bu gün İraqda 4 milyonluq türkmən xalqının sadəcə 1 naziri və 1 nazir əvəzedicisi var. Hansı ki, Maliki hökuməti dönəmində 3 nazir və 4 nazir əvəzi postu bizim idi. Bu gün istər Bağdadda, istərsə də Kərkükdə bütün yüksək postlara ərəblər, ya da kürdlər təyin olunur.

> “Türkmən Məclisinin qurulması bütün türkmənlərin arzusudur

***- Bildiyimə görə, İraqın hər yerində narazılıq hökm sürür və çox güman ki, bu özünü seçkidə də göstərəcək...***

- Bəli, yalnız türkmənlər deyil, bütün ölkə problem içindədir. Təsəvvür edin ki, İraqın cənubunda əsasən şiələr yaşayır, amma onların da arasında qarışıqlıq var. Neçə şiə partiyası ofislərini bağlamağa məcbur olub. Cənubda yaşayanlar partiyalara deyil, ayrı-ayrı müstəqil namizədlərə səs vermək istəyirlər. Səbəb də budur ki, partiyaların bir çoxu korrupsiyaya qurşanıb, özlərini varlandırıblar, xalq isə sosial sıxıntı yaşayır. Bu gün elektrik, içməli su problemi insanların çiynində yükdür. İnsanlar işsizlikdən əziyyət çəkir və idarəetmə sisteminin naşılığına son qoymaq üçün narazılıqlarını bildirirlər. Təbii ki, Qərb İraqda mülki sistemin qələbə qazanması üçün narazı xalqın hakimiyyətin əleyhinə çıxışlarımı tam dəstəkləyir. Hazırda cənubda şiələr iki bloka bölünüblər - islamçı şiələr və onlara qarşı çıxan liberal və ya demokrat təşkilatlar. Hətta prezident, baş nazir, parlament sədri də islamçılara qarşıdır, amma qorxularından səslərini çıxarmırlar.

***- Türkmən partiyaları olaraq seçki siyahısını necə tərtib etmisiniz, kimlərin adları yazılıb, sədrlərin, yoxsa tamam fərqli insanların?***

- Təbii ki, seçkidə bizim də namizədlərimiz var və onlara ciddi dəstək veririk. Biz bu dəfə belə razılaşdıq ki, heç bir partiyanın sədri deputatlığa namizəd olmasın. Doqquz siyasi partiyadan səkkizi bu qaydaya riayyət elədi, yalnız İradə Partiyasının sədri xanım Jalə Neftçi öz namizədliyini irəli sürdü.

***- Yeri gəlmişkən, seçkidən neçə mandat qazanacağınızı düşünürsünüz?***

- Bu dəfə namizədlərimizin sayını azaltmışıq. Ötən seçkidə təkcə Kərkükdən 24 nəfərlik siyahı üzrə seçkiyə qatılmışdıqsa, bu dəfə cəmi 7 namizədimiz var. İstəyirik ki, səslərimiz parçalanmasın, namizədlərimizi yetərincə dəstələyə bilək. Mosulda və digər yerlərdə də namizədlərimiz var. Ötən seçkidə Kərkükdə 3, Mosulda 4 millət vəkilimiz olmuşdu. Arzu edirik ki, bu dəfə heç olmaya millət vəkillərimizin sayı azalmayacaq.

***- Seçkinin nəticəsinə uyğun olaraq yeni hökumət qurulacaq İraqda. Sizcə əvvəlkilər kimi olacaq, yoxsa dəyişiklik hiss ediləcək?***

- Məncə, yeni formalaşdırılacaq hökumət bir az Qərbyönümlü, bir az da Ərəbistana, Körfəz ölkələrinə meylli siyasət yürüdəcək. Yəni İranla bir az məsafə saxlayacaq. Təbii ki, İran bunu asanlıqla həzm etməyəcək. Amma yenə də düşünürük ki, İraq qonşu ölkələrlə, dünya birliyi ilə daha yaxşı əlaqələr quracaq və öz problemlərini azaldacaq. Bu seçkidə çox dəyişikliklər olacaq, yeni simalar seçiləcək və hökumətdə yer alacaq. Çəkişmələrin artacağını düşünürük. Qonşu ölkələr, xüsusilə də İran islamçıların iqtidarda qalması üçün əlindən gələni etməkdədir. Təbii ki, mövcud islamçı şiə partiyaları tutduqları yüksək postları asanlıqla əldən vermək istəməyəcəklər. Həm də nəzərə alaq ki, onların ixtiyarında silahlı qüvvə və böyük pullar var. Ölkəmizin yaxın gələcəyi qaranlıq görünsə də, biz bunu istəmirik və İraqın tezliklə asayişə qovuşmasını arzulayırıq.

***- Nə zamandır Türkmən Məclisini yaratmaq istəyirsiniz, amma bəzi səbəblər buna mane olub. Bu gün gecdir, amma aylar öncəsi belə bir Məclisiniz qurulmuş olsaydı, həftə sonu keçiriləcək seçkiyə birgə gedə bilərdiniz...***

- Türkmən Məclisinin qurulması bütün türkmənlərin arzusudur. Əslində doqquz türkmən siyasi partiyasının hamısı Məclis quraq deyir, yalnız İraq Türkmən Cəbhəsi Ankaranı inandırır ki, bu Məclis İranın təsiri altına düşəcək, kürdlərlə əməkdaşlıq edəcək və sair. İndiyədək məhz İraq Türkmən Cəbhəsinin mövqeyi üzündən Məclis qurulmayıb, nə vaxt təşəbbüs göstərmişik, onlar mane olublar. Təəssüf ki, Ankaradakı bəzi dostlar, eləcə də türkmən quruluşlar da əl altından maneə törədiblər. Məclis qurmaq bizim haqqımızdır. İraq konstitusiyasının 125-ci maddəsində bu hüquqlar təsbit olunub. Çalışırıq ki, heç olmaya seçkidən sonra Məclisi quraq və birbaşa İraq hökumətinin nəzarətində olsun, büdcədən maliyyə dəstəyi alsın. Təbii ki, Məclisin verəcəyi qərarlar da türkmənlər üçün birləşdirici, bəzən isə tövsiyyə xarakterli olmalıdır. Hətta deyirik ki, gəlin türkmənlərin Ali Siyasi Şurasını yaradaq. Bura bütün türkmən partiyalarının sədrləri, millət vəkilləri və hökumətdə rol alacaq nazirlər üzv olsun. Sonradan həmin Şura Türkmən Məclisinin qurulması üçün hazırlığa başlasın. Başa düşürük ki, İraqda heç bir siyasi mərkəz türkmənlərin vahid gücə çevrilməsini istəmir...

***- Sizcə niyə?.. Bunun qarşılığında seçkiyə həvəslə hazırlaşırsınız...***

- Bayaq dediyim kimi, türkmən partiyaları seçkiyə vahid siyahı üzrə, böyük həvəslə qatılıb. Hələ üç gün qalır, inşallah ki, nəticələr dövlətimizə böyük dəyişikliklər gətirəcək. Xalq olaraq biz türkmənlər də bunu istəyirik. İraqın seçki sistemində həmişə saxtakarlıq böyük rol oynayıb, səslər saxtalaşdırılıb. Parlamentdə özünə saxta seçki yoluyla yer edən partiyalar korrupsiya və rüşvətxorluqda hökumətə də ortaq olublar. Deyərdim ki, ayrı-ayrı nazirliklər bu partiyaların kassasına çevriliblər. Əlbəttə, bütün partiyalar pis deyil, aralarında yaxşıları da var. Hər halda, bu dəfə saxtakarlıq olmasın deyə bir sıra işlər görülüb və inanıram ki, nəticəsi olacaq.

***- Seçkiöncəsi İraqda ciddi canlanma var, özü də məhz şiə qruplar arasında. Bildiyim qədər, şiələr seçki prosesində üç cəbhəyə bölünüblər: Əli Sistani, Hadi əl-Amiri və Müktəda əs-Sədr qrupları...***

- Şiə qruplar arasında ciddi rəqabətin olduğu açıqdır. Əli Sistani şiələrə çağırış elədi ki, seçkidə aktiv olsunlar. İraq əhalisinin seçkiyə münasibəti belədir: kimlərin ki, hansısa partiyaya rəğbəti var, gedib səs verirlər. Amma hansısa partiya ilə bağlılığı olmayanlar səsvermədə iştirak etmirlər. Çox istərdim ki, Sistaninin çağırışı əhalini fəallaşdırsın. Bizim türkmən əhali arasında da seçkidə fəallıq hər zaman aşağı olub. Çalışırıq ki, hamı səsverməyə qatılaraq istədiyi namizədə səs versin. Əgər türkmənlər seçkidə tam fəallıq göstərərsə, təkcə Kərkükdə 12 millət vəkili mandatından 4-nü qazana bilərik.

***- Şiələrin bu üç qrupu arasında hansısa bağlılıq və ya fərq varmı, onlardan hansı İraq üçün daha münasib gələcək vəd edir?***

- Əslində şiə partiyalar arasında, istər Müktəda əs-Sədr olsun, istər Əl-Hadi və digərləri, əsas hədəflərində elə də ciddi fərq yoxdur. Onlar çalışırlar ki, nə edək daha çox mandat qazanaq. Yəni maraqları ideologiya yox, mənfəətdir. Şiələr arasında əsas mübarizə islamçılarla müasirlər arasında gedəcək. Yəni islamçı qruplar öz aralarında mənfəət, müasirlərlə islamçılar isə idealogiya uğrunda mübarizə aparacaqlar. Kürdlər arasında da mübarizə xeyli güclənəcək. Amiri qrupu İranla əlaqələrə üstünlük verir. Müktəda əs-Sədr əksinə, İranla məsafə saxlayıb, şiə olmasına baxmayaraq sünni-ərəb dünyası ilə əlaqələrə üstünlük verir. O, Səudiyyə Ərəbistanında səfərdə də olub. Əs-Sədr ölkədəki sağçı-islamçı qrupları öz ətrafında cəmləməkdədir. Təbii ki, bütün siyasi partiyaların İranla dərin köklü əlaqələri var və İranın onlara bu gün də təsiri güclüdür. Odur ki, onların bu seçkidə hamısının birdən yeniləcəyini gözləmək olmaz.

***- Müktəda əs-Sədr qonşu ölkələri seçkilərə müdaxilə etməməyə çağırdı və edərlərsə irəlidə qarşılıq verəcəkləri ilə hədələdi. Xəbərdarlıq hansı ölkəyə ünvanlanıb sizcə?***

- Əs-Sədr ədalətli seçki keçirilsin deyə belə bir çağırış edib. Çox güman ki, qonşu ölkələr dedikdə İranı nəzərdə tutub. Bayaq dediyim kimi, İran şiə partiyalara dəstək verir.

***- Sünni iraqlılar, eləcə də kürdlər seçki öncəsi çox rahat görünürlər. Niyə sakitdirlər, bəlkə sonda istədiklərini ala biləcəklərinə arxayındırlar...***

- Doğrudan da, budəfəki seçkidə sünnilərlə kürdlər çox rahatdırlar. Düşünürəm ki, alacaqları səslərdə artım olacaq. Budəfəki seçkidə partiyalar arasında yarışdan əlavə, namizədlərarası mübarizə gedəcək. Kərkükdə seçkilər bir növ türkmənlər, kürdlər və ərəblər arasında gedir. Odur ki, kimliyindən asılı olaraq hər kəs öz millətindən olan namizədə səs verəcək.

***- Son olaraq deyin: bu seçkilər İraq türkmənlərinə və Türkməneli yurduna nə vəd edir?***

- Seçkidən sonra ölkədə vəziyyət sabitləşəcəkmi, yoxsa qarışacaqmı, bunu indidən söyləmək olmaz? Yaxşılığa doğru olarsa, əslində türkmənlərin də arzuladığı ab-hava yaranar. Elə böyük gözləntimiz yoxdur, bayaq da dediyim kimi, ən azından ötən dəfəki millət vəkili sayımızı qorumağa çalışacağıq. Həm də bu dəfə daha fəal, sözünü deyə biləcək millət vəkillərini parlamentə göndərmək istəyirik. Ötən seçkidə, xüsusilə də Kərkükdən seçilmiş millət vəkillərimiz passiv oldular, türkmənlər üçün heç nə edə bilmədilər. İstəyirik daha çox gənc və aktiv insanlar seçilsin. Əvvəllər parlamentdə millət vəkillərimiz maksimum 15 nəfər olub. Hansı ki, kürdlər hər dəfə ən azı 50 millət vəkili mandatı qazanıblar. Niyə, ona görə ki, mövcud seçki sistemi bu vəziyyəti yaradıb. Bütün bunları nəzərə alaraq, türkmən millət vəkilləri daha çox işləməyə məcburdur. Kürd millət vəkili 8 saat işləyirsə, bizimkilər 18 saat işləməlidirlər ki, nəsə əldə edə bilsinlər.

***✍ Vüsal Tağıbəyli***



# "İran Azərbaycana hücum edərsə, Səddam Hüseynin aqibətini yaşayacaq"

***Səudiyyə Ərəbistanından olan tanınmış yazar Tarik əl-Homayed İranın Azərbaycanla həmsərhəd bölgədə keçirdiyi hərbi təlimlə bağlı "Şarkul Avsat"da məqalə dərc edib. Müəllif yazır ki, İran təxminən 700 kilometrlik sərhədi olan Şimal qonşusu Azərbaycanla münasibətlərində hissolunacaq dərəcədə gərginlik yaşayır.***

Səbəb nədir? Hər halda deyə bilərik ki, Azərbaycan tərəfi Qarabağa qanunsuz şəkillə soxulmağa çalışan İranın neft daşıyan tanker-avtomobillərinə rüsum tətbiq edəndən sonra iki ölkə arasında xoşagəlməz meyillər ortaya çıxıb.

Cənab Əl-Homayed bilməyənlər üçün də xatırlatma olsun deyə qeyd edir ki, İrandan Ermənistana daxil olan yolun bir qismi Azərbaycan torpaqlarından keçir. Azərbaycanla Ermənistan arasında baş vermiş məlum müharibədən sonra məhz TIR-ların qısa və rahatlığını nəzərə alaraq istifadə etdiyi yolun keçdiyi qəsəbə və ətraf ərazilər Azərbaycanın nəzarətinə verildi. Müəllif sual verir ki, Azərbaycan tərəfinin İran TIR-larından öz ərazilərinə daxil olduqları üçün rüsum alması iki ölkə arasında müharibənin başlamasına səbəb verə və yaxud da İranın Azərbaycan sərhədlərində hərbi təlimlər keçirməsinə zərurət yarada bilərmi? Bircə cavabı var: xeyr!

"İranın narahatlığını artıran məsələ, rəsmi Tehranın öz təbirincə desək, İsrail, Azərbaycan və Türkiyənin bölgənin geosiyasi düzənini dəyişdirməyə istiqamətlənmiş addımlar atmasıdır. Burada hekayənin canalıcı nöqtəsinə gəlirik:

Tahra İraq - İran və Əfqanıstan - İran sərhədlərini yönləndirən ABŞ-ın çəmbərində yaşadığı 20 illik sərhəd narahatlığını alovlandıracaq yeni sərhəd hekayəsini yaşamaq istəmir", - deyən səudiyyəli yazar bildirir ki, İran əvvəllər də olduğu kimi, öz torpaqlarından kənarda oynamaqdadır.

Tarik əl-Homayed yazır: əldə etdiyim məlumata əsasən, rəsmi Tehran bu gün Azərbaycan - Türkiyə - İsrail yaxınlaşmasından olduqca narahatdır. Pakistan - Taliban yaxınlaşması məsələsində də ciddi əndişələri var. İş bunla bitmir - İran həm də İsrailin bəzi Körfəz ölkələri ilə diplomatik müstəvidə yaxınlaşmasından narahatdır. İsrail xarici işlər nazirinin Bəhreynə səfərinə İranın göstərdiyi sərt reaksiya da bunun bariz nümunəsidir.

"İranın Azərbaycanla aralarındakı iplərin gərilməsinin əsas hekayəsi və hərbi əməliyyat dili ilə danışması, Tehranın alov alan sərhədlərinin təhlükəsini bir neçə istiqamətdən hiss etməyə başladığını göstərir. Ona görə də bu gün İran silahlı qruplar və agentlər vasitəsilə sərhədlərində oynanılan uzunmüddətli bir oyunun ardından narahatlığını aradan qaldırmaq istəyir.

> “İran bəlkə də bu addımları atmaqla əhalinin diqqətini ölkəni bürüyən sosial böhrandan yayındırmağa çalışır

İran medianın eyham vurduğu və ya xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın təhdid etdiyi kimi, Azərbaycana qarşı hərbi əməliyyat keçirməyi planlaşdırırmı? Abdullahiyan Azərbaycan Prezidentinin açıqlamalarına cavab olaraq "təəccübedici və üzücü olduğunu", ölkəsinin İsrailin milli təhlükəsizliyinə qarşı hərəkət etməsinə və hər hansı fəaliyyət yürütməsinə icazə verməyəcəyini, hətta lazım olarsa bu müstəvidə əməli addımlar atacağını demişdi", - müəllif xatırladır.

Müəllif qeyd edir ki, İran bəlkə də bu addımları atmaqla əhalinin diqqətini ölkəni bürüyən sosial böhrandan yayındırmağa çalışır. Amma Azərbaycana hücum edərsə, çox güman ki, vaxtilə Səddam Hüseyn Küveytə girməklə etdiyi strateji səhvi təkrarlayar. "Bax, o zaman İran heç şübhəsiz, sadəcə sərhəd məsələsində deyil, bir neçə istiqamətdə tələyə düşəcək. Bu halda İran kəskin və ciddi oxların hədəfi olacaq", - deyir Səudiyyə yazarı Tarik əl-Homayed.

***✍ Vüsal***



**■ "Azərbaycan Hava Yolları" aviaşirkəti oktyabrın 6-dan etibarən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə daxili reysi yerinə yetirərkən Ermənistan ərazisi üzərində hava məkanından istifadə etməyə başlayıb.**

AZAL-dan hafta.az-a verilən məlumata görə, bu addım Azərbaycanın regionda nəqliyyat kommunikasiyalarının açılmasına qəti hazır olduğunu nümayiş etdirir və bütün sərhəd dövlətlərin maraqlarına cavab verir. Bakı-Naxçıvan-Bakı reysinin marşrutunun dəyişməsi həmçinin bu istiqamət üzrə uçuş vaxtının və uçuş zamanı yanacaq sərfiyyatının azalmasına gətirib çıxaracaq. Beləliklə, bundan sonra AZAL bu reysi yerinə yetirərkən Ermənistan və İran üzərindən keçən dəhlizlər daxil olmaqla bütün mövcud hava dəhlizlərindən istifadə edə bilər.



**■ Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) bir sıra vəzifələrə yeni təyinatlar həyata keçirilib. İdarədən hafta.az-a verilən xəbərə görə, təhsil nazirinin əmrinə əsasən, Kamran Əliyev BŞTİ-nin Hüquq sektorunun müdiri vəzifəsinə təyin edilib.**

Qeyd edək ki, bu təyinata qədər K.Əliyev Peşə Təhsili üzrə Dövlət Agentliyində və Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Təhsil nazirinin digər əmrinə əsasən, Tural Mahmudov BŞTİ-nin İnfomasiya təminatı sektorunun müdiri vəzifəsinə təyin olunub. Həmçinin təhsil nazirinin əmrinə əsasən, Fuad Əsgərov İnsan resursları sektorunun müdiri vəzifəsinə təyin edilib. Bu təyinata qədər F.Əsgərov Daxili işlər və Fövqəladə hallar orqanlarında, BŞTİ-də müxtəlif vəzifələrdə çalışıb.



**■ İspaniya, Fransa, Çexiya, Yunanıstan və Rumıniya son aylarda enerji qiymətlərinin artması səbəbindən Avropa qaz bazarının fəaliyyətini araşdırmağı təklif ediblər.**

Bu barədə sözügedən ölkələrin iqtisadiyyat və maliyyə nazirlərinin birgə bəyanatında bildirilir. Məlumata görə, qaz və elektrik enerjisinin qiymətinin artmasının ev təsərrüfatlarının və şirkətlərin üzərinə ağır bir yük kimi düşür və bununla əlaqədar qeyd olunan ölkələr bir neçə təklif irəli sürüb. Xüsusilə, ölkələr qiymət artımlarına dərhal reaksiya vermək üçün Avropa səviyyəsində ortaq bir yanaşmanın lazım olduğunu düşünür. Bundan əlavə, istehlakçıların ödədiyi qiymətlə elektrik istehsalının orta dəyəri arasındakı əlaqəni yaxşılaşdırmaq üçün Avropa İttifaqının elektrik bazarında islahatların aparılması təklif olunur.



**■ Azərbaycanda qeyri-neft ixracının artım tempi bu ilin yanvar-sentyabr aylarında 40% təşkil edib. Bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Onun sözlərinə görə, bununla yanaşı, bu ilin səkkiz ayı ərzində qeyri-neft sənayesi 18,7% artıb.**

"Biz artan iqtisadi dinamikanı aktiv vergi ödəyicilərinin artımında da görürük. Belə ki, ilin doqquz ayında bu rəqəm 5% artıb", - deyə M. Cabbarov qeyd edib. O həmçinin əlavə edib ki, qeyri-neft sektorunun xüsusi çəkisi 10 il ərzində 48%-dən 70%-də artıb. "Qeyri-neft sektorunun inkişafının əlverişli mexanizmi sayılan sənaye zonalarında indiyədək bütün istehsal həcmi 4,3 mlrd. manatdan çox olub. Burada qoyulan toplam sərmayələrin həcmi isə 6,1 mlrd. manat təşkil edib", - deyə nazir qeyd edib.



**■ "Həyat deyəsən gözəldir" (Fəryad-2) tammetrajlı bədii filminin Xocavənd rayonunun Hadrut qəsəbəsində, Xızı rayonunda, Bakıda və Abşeron yarımadasında iki aydan artıq müddətdə həyata keçirilən çəkilişləri yekunlaşıb.**

"Azərbaycanfilm" kinostudiyasından hafta.az-a verilən xəbərə görə, rejissoru Xalq artisti Vaqif Mustafayev olan film erməni daşnaklarının 30 ilə yaxın bir müddətdə zəbt edərək talayıb viran qoyduğu Qarabağ torpaqları uğrunda gedən 44 günlük Vətən müharibəsindəki zəfərimizdən bəhs edir. Azərbaycan ordusunun hücumları nəticəsində ermənilər aciz qalır, təlaşa düşürlər. Əsir alınan erməni əsgərləri arasında iki qardaş da var. Qardaşların sonrakı aqibəti tragikomik janrda olan ekran əsərinin əsasını təşkil edir.



**■ Birləşmiş Ştatlar ölkə daxilində infrastruktura investisiyalar da daxil olmaqla, irimiqyaslı yatırımlar etməsə dünyada iqtisadi üstünlüyünü itirə bilər. Bu barədə ABŞ prezidenti Cozef Bayden deyib.**

Ölkənin hazırda tarixində hər 40-80 ildən bir baş verən dönüş nöqtəsində olduğunu bildirən amerikan lideri qeyd edib: ""Amerika uzun müddətdir ki, dünyanın tempini verib. 20-ci əsrin çox hissəsində özümüzə, xalqımıza və ölkəmizə sərmayə qoyarkən dünyaya əhəmiyyətli bir fərqlə liderlik etdik". Bununla birlikdə, dövlət başçısı ölkənin yavaşladığını və daxilində yatırımları dayandırdığını vurğulayıb: "ABŞ hələ də dünyanın ən böyük iqtisadiyyatıdır, ancaq bu üstünlüyünü itirə bilər".

# Yazıçılar Birliyinin Şuşa qurultayı

## Mədəniyyət

***Bir müddət öncə Yazıçılar Birliyinin növbəti qurultayının Şuşada keçiriləcəyi ilə bağlı xəbərlər çıxmışdı. Belə ki, bu təşəbbüslə Birliyin sədri Anar Prezident İlham Əliyevlə Şuşada görüşündə çıxış etmişdi. Prezident də təşəbbüsü müsbət qarşılamışdı. Daha sonra qeyri-müəyyən səbəblərdən qurultayın keçirilməsi təxirə salındı. Məsələ ilə bağlı hafta.az-a açıqlama verən Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq Məsələləri üzrə katibi İlqar Fəhmi qurultayın müxtəlif səbəblərdən təxirə salındığını bildirdi:***




**Təxirə salındı**

"Dəqiq bilmirəm, ancaq səhv etmirəmsə, Yazıçılar Birliyinin Şuşada təşkil ediləcək qurultayı hava şəraiti ilə bağlı hələlik təxirə salınıb. Bilirsiniz ki, bu ərəfələrdə yağışlar bir az çox oldu. Bir digər səbəb də pandemiya ola bilər. Vaxtı dəqiqləşdikdə mətbuata məlumat veriləcək".

Qeyd edək ki, Prezident İlham Əliyev ilə Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın Şuşadakı görüşü və sözügedən dialoq avqust ayında baş tutub.

Ötən bir ildə Azərbaycan Yazıçılar Birliyinin ayrı-ayrı üzvləri Vətən Müharibəsi ilə bağlı çoxsaylı əsərlər yazıb, kitablar çap etdiriblər. Bu barədə Birliyin mətbuat xidmətinin rəhbəri Xəyal Rza hafta.az-a açıqlamasında bildirib.

Qurum rəsmisi həmçinin vurğulayıb ki, müharibədən sonra Yazıçılar Birliyi tərəfindən"Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" adlı kitab işıq üzü görüb:

"Çıxan kitablar olduqca çoxdur. Təbii olaraq hər birini sadalaya bilmərəm. Bilirsiniz ki, yazıçılar birliyinin çoxsaylı üzvləri var, təxminən 2000-ə yaxın. Bu 2000 nəfərin 150-si Vətən müharibəsi ilə bağlı kitab çıxarıbsa, təbii ki, bu kifayət qədər ciddi rəqəmlər olur. Yazıçılar Birliyi tərəfindən Anar müəllimin təşəbbüsü ilə müharibədən dərhal sonra çox dəyərli bir almonarx çap olundu. Bu da "Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" adlı kitabdır. Bu yaxınlarda da Bakı Kitab Mərkəzində təqdimatı keçirildi. Eyni zamanda Bakı Ekspo Mərkəzindəki sərgidə də təqdimatı keçirilib. Kitabda bir çox müəllifin Qarabağla bağlı yazdığı əsərləri çap olunub. Ayrı-ayrı müəlliflər də müharibə ilə bağlı müntəzəm olaraq müxtəlif əsərlər yazıb və çap etdirib".

Qeyd edək ki, "Təhsil" nəşriyyatında çap edilən, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş 528 səhifəlik kitabın ideya müəllifi Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, "Ön söz" müəllifi və redaktoru isə Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məciddir. Kitabın üz qabığındakı "Cıdır düzündə Azərbaycan bayrağı" rəsmi Xalq rəssamı Sakit Məmmədova məxsusdur.

Azərbaycan Yazıçılar Birliyinin 2000 üzvünün 30-40 faizini gənclər təşkil edir. Bu barədə Birliyin mətbuat xidmətinin rəhbəri Xəyal Rza hafta.az-a açıqlamasında bildirib. Həmçinin sədr birliyə qəbul qaydalarına da toxundu: "İllərlə kitabı çıxmayan yazıçının uzaqlaşdırılması kimi bir kriteriyamız yoxdur. Birliyə qəbul komissiyası və xüsusi qaydaları var. Heç kimdən tələb edilmir ki, hər il kitab çap edəsən. Elə bir qayda yoxdur. Yazıçılar Birliyi könüllü təşkilatdır. Bura üzv olmaq da könüllü istəklə bağlıdır. Qəbul olunan zaman yazıçıların qarşısına qoyulan bəzi şərtlər var. Bunlardan biri də dövrü mətbuatda çap olunması, ən azı 2 kitabının olması, 3 zəmanət və s. Bundan sonra birlik tərəfindən dəyərləndirmə aparılır".

✍ *Banu*

# Məktəb yaşı azaldıla bilər

## Təhsil

***Təhsil naziri Emin Əmrullayevin uşaqların məktəbə başlama yaşının azaldılması ilə bağlı təklif verib.***



■ **"İndiki dövrdə uşaqların 5 yaşdan məktəbə göndərilməsi uğurlu ola bilməz. Düzdür, 5 yaşda əldə olunan bilik uşağın dünyagörüşünə müəyyən qədər təsir edir. Amma yaşa görə biliyin çoxluğu gələcəkdə şagirdin ümumi psixi pozğunluğuna yol aça bilər". Bu fikirləri hafta.az-a təhsil eksperti Elçin Əfəndi bildirib. Onun sözlərinə görə, beynəlxalq təcrübədə də 5 yaşlı uşaqların bilik əldə etməsi üçün erkən məktəbə başlamasının doğru yanaşma olmadığı görünür:**

"Bu yalnız xüsusi istedadlı uşaqlar üçün mümkündür. Hər il fors-major hal kimi 5 yaşlı uşaqların məktəbə qəbul edilməsi faktı var. Valideynlər, adətən, 3-4 yaşlı uşağını məktəbəqədər hazırlıq qruplarına yazdırırlar. Bu, məktəbə başlamanın 5 yaşda olmasına əsas vermir. Belə yaşda əldə olunan bilik uşağın dünyagörüşünə müəyyən qədər təsir etsə də, gələcəkdə şagirdin ümumi vəziyyətində problemlər yaradır. Bununla yanaşı, şagirdin müəyyən fənlər üzrə əldə edəcəyi biliklərin qarışmasına və xaotik vəziyyətin yaranmasına səbəb olur. Təhsil nazirinin təklifində məktəbə başlamanın 5 yaşa endirilməsi nəzərdə tutulur. Doğrudur, müasir dövrdə informasiya texnologiyalarının inkişaf etməsi nəticəsində aşağı yaş kateqoriyasında olan uşaqlar daha çox biliklər əldə edə bilirlər. Təxminən, 20 il əvvəlki dövrlə müqayisədə indiki uşaqların fərqini açıq şəkildə görmək olur. Bu amil uşaqların məktəb yaşını aşağı salmağa zəmin yaratmamalıdır.

Yaxşı olar ki, təhsilin keyfiyyəti artırılsın. Əgər bu addım atılacaqsa, bunun üçün dərsliklərdə sadələşmə aparılmalı və müvafiq təhsil müəssisələrində müasir innovasiyalara cavab verən sistemlər qurulmalıdır. Bununla yanaşı, təcrübəli pedaqoji heyət formalaşdırılmalıdır. Əgər məktəb yaşı 5 yaşa endirilsə, bu halda şagirdlərin dərs proqramı azaldılmalıdır. Həmçinin dərsliklərdə yer alan mövzuların sayı az olmalıdır. Nəticədə uşaqların beyinlərinin vaxtından tez qocalmasının qarşısını almaq mümkün olacaq".

Ekspert vurğulayır ki, uşaqların 5 yaşdan məktəbə qəbul təcrübəsi Amerika, Sinqapur, Finlandiya kimi ölkələrdə var: "Biz də hazırda təhsil sahəsində daha çox Sinqapur, Finlandiya təcrübəsini öyrənirik. Yəqin ki, nazir də bu təzrübələrdən çıxış edərək belə bir təklifi səsləndirib. Biz hələ ki, bu sistemə keçidə hazır deyilik. Təhsil sahəsi təcrübə meydanına çevrilməməlidir. İndiyədək kurikulumun fəsadlarından əziyyət çəkirik, hələ də müəllimlər, şagirdlər bu sistemə tam öyrəşə bilməyiblər. İndiki dərsliklərlə 5 yaşdan uşaqları məktəbə qəbul etmək yanlış qərar olar. Bununla bağlı bütün dərslik yenidən işlənilməli, iş dəftərləri ayrıca deyil dərsliklərə daxil edilməli, mövzuların çətinlik dərəcəsi azaldılmalı, lazımsız məlumatlar dərsliklərdən çıxarılmalıdır".

> "
> *Uşaqların 5 yaşdan məktəbə göndərilməsi uğurlu ola bilməz*

> *Təhsil yaşının aşağı salınması təklifi həyatımızın gerçəkliyindən irəli gəlir*

■ **"Təhsil yaşının aşağı salınması təklifi həyatımızın gerçəkliyindən irəli gəlir. Heç kəsə sirr deyil ki, bu gün 5 yaşlı uşaqların bir çoxu əlifbanı bilir, şeirlər bilir, şəkil çəkmək bacarıqları var. Onlar kompüterdən, planşetdən də istfadə edə bilirlər.**

Əlbəttə, burada ümumiləşdirmə aparmaq istəməzdim. Yaş həddinin aşağı salınması məsələsinə heç şübhəsiz uşaqların fiziki və psixoloji hazırlığı məsələsi də təsir edəcək".

Bu fikirləri hafta.az-a təhsil naziri Emin Əmrullayevin uşaqların məktəbə başlama yaşının azaldılması ilə bağlı təklifini dəyərləndirənkən Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, millət vəkili Musa Qasımlı deyib. Millət vəkili vurğulayıb ki, bəzi uşaqlar məktəbə getməkdə olduqca həvəslidirlər: "Gözümüzün önündə bəzi uşaqların məktəbə getmək həvəsinin də olduğunu görürük. Hesab edirəm ki, bu məsələ gec-tez həllini tapmalıdır".

✍ *Sevinc*

# Marketlər çörək istehsalçılarından vitrinpulu tələb edir

## İttiham

**"Çörəyin yeni standartının qəbul olunmasnda Nazirlər Kabineti rol oynayıb. Nazirlər Kabineti bununla bağlı aidiyyəti dövlət qurumlarının iştirakı ilə onlayn toplantı keçirib və çörəyin standartının hazırlanması ilə əlaqədar tapşırıq verilib. Bu məsələ əsasən, "sosial cörək"lər deyilən zavod cörəklərinə aiddir".**



**Eyyub Hüseynov,**
Qida Təhlükəsizliyi Agentliyi yanında İctimai Şuranın üzvü

> "
> *Əgər istehsalçılardan alınan qeyri-qanuni, vergiyə cəlb olunmayan xərclərə son qoyulsa, çörəyin də qiyməti aşağı düşər*

■ **Bunu hafta.az açıqlamasında buğda unundan hazırlanan çörəyə dair dövlət standartı təsdiq edilməsinə münasibət bildirərkən Qida Təhlükəsizliyi Agentliyi yanında İctimai Şuranın üzvü Eyyub Hüseynov bildirib. Onun sözlərinə görə, zavod çörəklərinin üzərində ciddi mübahisə gedir:**

"Dövlət orqanları illərdir ki, zavod çörəyinin qiymətinin sabit saxlanılması üçün iş aparır. Hərçənd ki, dövlət orqanının bu hərəkəti qeyri-qanunidir. Azad bazar iqtisadiyyatı şəraitində çörək istehsalçılarına təzyiq edib qiymət təyin etmək olmaz.

Bu iş gedir və "sosial çörək" istehsalçıları daim bir qırmızı xəttin üzərində dayanıblar. Onlar da qiymət təzyiqinə dözməyərək keyfiyyəti, çəkini aşağı salır, nəmliyi yüksəldirdilər. Ona görə də aidiyyəti dövlət qurumları bu qərara gəliblər ki, çörəyin standartı hazırlansın.



Bu standart "sosial çörək"in 4 növünə aiddir. Bunlara əla, 1-ci, 2-ci və kəpəkli un çörəyi daxildir. Eyni zamanda, çörək istehsalçılarına qiymətlərin sabit saxlanılması ilə bağlı şifahi şəkildə müəyyən qiymət deyilib. Əslində, dövlət orqanları çörəyin, xüsusilə "sosial çörək"in qiymətini sabit saxlamaq və ya aşağı salmaq istəyirsə, buyursunlar, marketlərin çörək istehsalçılarından məhsullarını vitrinlərə yerləşdirmək üçün aldıqları vəsaitlərə son qoysunlar.

Çörəkləri marketlərə yerləşdirmək üçün istehsalçılardan külli miqdarda vəsait tələb edilir. Vitrinlər qarış-qarış satılır və üstəlik, satışdan gələn, istehsalçıya çatan puldan müəyyən bonus olaraq marketlərə qaytarılır. Nazirlər Kabineti marketlərlə bu məsələni həll etməlidir. Əgər istehsalçılardan alınan qeyri-qanuni, vergiyə cəlb olunmayan xərclərə son qoyulsa, çörəyin də qiyməti aşağı düşər və dövlət məmurları da qanuna zidd olaraq istehsalçılara təzyiq etməzlər. Standartların qəbul olunması isə ona görə əhəmiyyətlidir ki, artıq istehsalçılar çörəyin nəmliyini yuxarı qaldırmayacaqlar, keyfiyyəti aşağı salmayacaqlar. Bununla yanaşı, yeni standartlar bazar iştirakçılarının sayının azalmasına da gətirib çıxaracaq. Yeni standartlarla bütün istühsalçılar işləyə bilməyəcək". Ekspert həmçinin vurğulayır ki, market sahibləri hökumətin apardığı sosial siyasətə doğru addım atmalıdırlar: "Marketləri hökumətin apardığı sosial siyasətə doğru addım atmağa çağırıram. Hər bir marketdə 20 mindən çox mal var. Hər məhsulun vitrinə yerləşdirlməsi üçün pul alınır və bu böyük bir məbləğdir. Məsələn, mən bir dəfə bal istehsalçısından məhsulunu nə üçün marketlərə yerləşdirmədiyini soruşdum, o isə cavabına bildirdi ki, bunun üçün marketlər ondan, təxminən, 18 min manat istəyirlər. Yəni burada böyük vəsaitlərdən söhbət gedir və bu pullar da dövriyyədən gizlədilir. Bu kimi məsələlər mütləq həllini tapmalıdır. Sahibkarlar Konfederasiyası da məsələyə müdaxilə etməlidir və sahibkarların hüquqlarını müdafiə etməlidir. Mən dəfələrlə bununla bağlı onlara müraciət etmişəm, amma reaksiya yoxdur, sususlar. Market sahibləri Konfederasiyaya üzvdürlər, üzvlük haqqı ödəyirlər".

Qeyd edək ki, Azərbaycanda istehlakçıların yüksək keyfiyyətli (əla, 1-ci, 2-ci və kəpəkli un çörəyi) çörəklə təmin olunması üçün sərtləşdirilmiş tələbləri özündə ehtiva edən AZS 899:2021 "Buğda unundan hazırlanan çörək. Texniki şərtlər" dövlət standartı təsdiq edilib. Məlumata görə, standartı Dövlət Xidmətinin tabeliyindəki Azərbaycan Standartlaşdırma İnstitutu hazırlayıb. Son dövr ərzində çörək sənayesi sahəsində dayanıqlı keyfiyyət meyarlarının təmin edilməsi məqsədilə AZS 888:2020 - "Buğda. Texniki şərtlər". və AZS 894:2021 - "Çörək sənayesi üçün buğda unu.

Texniki şərtlər" dövlət standartları da qəbul edilib. Standart layihələrinin müzakirəsində Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər. Yeni dövlət standartı ölkə ərazisində aparılan elmi-tədqiqat işləri, beynəlxalq və regional standartlar əsasında hazırlanıb və təsdiq edilərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

✍ *Sevinc*

# 3-cü doza çağırışları - Azərbaycanda da tövsiyə edilir



**Yay aylarında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünya ölkələrinə müraciətində sentyabr ayına qədər vaksinasiyanın əhali arasında 60 faizdən çoxunun cəlb edilməsini tövsiyə etmişdi.**

Buna səbəb isə sentyabrdan sonra soyuq hava ilə birgə daha da güclənən virus təhlükəsi idi. Hazırda dünyanın bir sıra ölkələrində əhali arasında peyvənd olunmuş şəxslərin faiz göstəricisi ikinci dozaya görə hətta 70-80 faizi keçənlər də var. Bizdə isə oktyabr ayı olmasına baxmayaraq, bu rəqəm cəmi 40 faiz civarındadır. Rəsmi rəqəmlər də onu göstərir ki, dünya ölkələri ilə müqayisədə bizdə ikinci doza vaksin olunanlar hələ də lazımi qədər deyil. Bununla belə, digər ölkələrdə 3-cü doza ("buster" doza) peyvəndin tətbiqi də artıq rəsmi olaraq başlayıb. 3-cü doza vaksin ilə bağlı söz-söhbətlər isə uzun müddətdir ki gedir.

Bu mübahisə, Pfizer rəsmisi və BioNTech'in amerikalı ortağı Albert Bourla, aprel ayında ilk peyvənddən sonrakı 6-12 ay müddətində üçüncü dozaya, sonra isə illik təkrar peyvənd edilməsinə ehtiyac ola biləcəyini vurğuladıqda daha da dərinləşdi. Hazırda dünyanın bir sıra aparıcı ölkələri 3-cü doza peyvəndə isti yanaşır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə daha azgəlirli ölkələrin zəngin dövlətlərin vaksinasiya səviyyəsinə çatana qədər üçüncü doza ilə peyvəndləməni təxirə salmağa çağırıb, çünki gücləndirici dozalar onsuz da çatışmayan qlobal vaksin tədarükünü məhdudlaşdıra bilər.

Təşkilatın Baş direktorunun fikrincə, son strategiya pandemiya ilə mübarizəni illərlə uzada bilər, halbuki onu bir neçə ay ərzində tamamlamaq üçün real fürsət mövcuddur. Tedros Adhanom Ghebreyesus həmçinin pandemiyanı dayandırmaq üçün əlavə vaksinləri yoxsul ölkələrə verməyə səsləyib. Bu da tam olaraq vaksinin dünya üzrə qeyri bərabər paylanması və ya "vaksin ədalətsizliyi" ilə bağlıdır.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyindən hafta.az-a verilən açıqlamaya görə, "Peyvənd sertifikatı" müddətsizdir və 3-cü dozanın vurulması onun müddətinə təsir etmir. Həmçinin son elmi tədqiqatlara əsasən, COVID-19 xəstəliyi əleyhinə hər 2 doza vaksin almış bütün tibb işçilərinin, yaşı 60-dan yuxarı olan əhalinin və immun sistemi zəif şəxslərin 3-cü doza ("buster" doza) ilə peyvəndlənmələri tövsiyə edilir. Bildiyiniz kimi, "Azərbaycan Respublikasında "COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir.

✍ *Banu*

# “Hər gün xaş yeyin”

## Menyu



***Havalar soyuduqca bəzi yeməklər var ki, onlara olan tələbat qat-qat artır. Belə yeməklərdən biri də kəllə-paça, “xaş”dır. Xaş Orta Şərq və Cənubi Qafqaz mətbəxinin ən çox sevilən yeməklərindən biridir. Ona dünyanın müxtəlif ölkələrində fərqli adlar verilib. Məsələn, Türkiyədə, İranda kəllə-paça adı ilə məşhurdur. Hafta.az-ın “Menyu” rubrikasının bugünkü mövzusu dörd mövsümün əvəzsiz yeməyi olan xaşla bağlıdır.***

Bildiyiniz kimi, bu aylarda kafe və restoranlarda xaşa tələbat artır. Onu ev şəraitində hazırlayanlar da az deyil. Üstəlik, bu yeməyin hazırlanma qaydası olduqca sadədir.

■ **Mövzu ilə bağlı saytımıza danışan qida mütəxəssisi Ağa Salamov söylədi ki, xaş da dolma və digər milli yeməklərimiz kimi, bölgələrə görə müxtəlif çeşidlərə bölünür. Elə bölgə var ki, burada xaşın içinə noxud, dəfnə yarpağı, soğan, yaxud da kartof əlavə edirlər:**

“Bişmə texnologiyası olduqca sadədir. Üstünə çıxacaq qədər su əlavə edilib qaynayana qədər gözləyirlər. Qaynadıqdan sonra isə aşağı tempdə 5-6 saat, bəzən isə səhərə qədər bişirilir. Bu da heyvanın yaşlı və cavan olmasından irəli gələn vaxt aralığıdır. Əgər yaşlı heyvandırsa onu 10-12, cavandırsa 5-6 saata bişirmək tövsiyə edilir”.

Ekspert xaş bişirmək üçün heyvan ayaqları alan zaman diqqət edilməli bir neçə məqama da toxundu. O, həmçinin düzgün “ütmə” texnikası barədə oxucularımızı bilgiləndirdi: “Xaş üçün çox vaxt heyvanın qabaq ayaqları götürülür. Buna səbəb isə ön ayaqların daha ətli olmasıdır. Bundan başqa, heyvan arxa ayaqları üzərində oturduğundan, ön ayaqlardan yemək hazırlanması daha məqsədə uyğundur. Kəllə-paçanın ütülməsinə gəldikdə isə qazda ütülmənin heç bir ziyanı yoxdur. Mənim yadımdadır ki, əvvəllər vedrənin içində ocaq qalayar orada ayaqları ütərdilər. Bu, ən təbii üsuldur. Kəllə-paça hazırlayan zaman diqqət edilməli məqamlardan biri də yuma qaydasıdır. Sümüyü bir qədər yağlı olduğundan, onu təmizlədikdən sonra, suyunu 3-4 dəfə dəyişərək yumaq lazımdır. Bundan başqa, kəllənin burun hissəsini kəsmək lazımdır. Bir qədər çırpdıqdan sonra isə burun hissəsindən çirklər gələcək və təmizlənmiş olacaq. Bişdikdən sonra duz əlavə edilir”.



**Ağa Salamov,**
qida mütəxəssisi

> *“Ürək, qan-damar sistemi və bu kimi digər xəstəliklərdən əziyyət çəkənlər həkim məsləhəti olmadan bu yeməyi istehlak etməsinlər*

Xaşın insan orqanizminə mənfi təsirlərinə gəldikdə isə ekspertin sözlərinə görə, bu yeməyi istehlak etməkdə heç bir ziyan yoxdur. Tam ütülərək təmizlənib, bişirilən xaşın tərkibində ziyanlı maddə qalmır:

“Çox vaxt bəzi ”dietoloq”lar insanlara yanlış informasiyalar verirlər. Guya ”Azərbaycan mətbəxinin kalori dəyəri yüksəkdir”, ”Azərbaycan mətbəxi öldürür”. Bunlar başa düşmür ki, bizim milli mətbəximiz formalaşıb. Xaş təqdim olunursa, onun kalori dəyəri nə qədər yüksək olsa da, yanında servis edilən sirkə tarazlığı təmin edir. Bir də xolesterini gündəmə gətirirlər. Bilmək lazımdır ki, xolesterinin faydalı və zərərli olmaqla iki yerə bölünür. Zərərli xolesterinləri yaradan xaş, quyruq, kərə yağı və başqa heyvanmənşəli ət-yağ məhsulları deyil.

Qanda pis xolesterinləri şəkər yaradır. Buna görə də insanlar mütəxəssislərin fikirlərinə əhəmiyyət verməlidir. Kor-korana şəkildə dietoloq kimi fəaliyyət göstərən insanların sözünə aldanmaq olmaz. Onlar mətbəximizi gözdən salmağa çalışırlar. Bəli, xaş ağırlıq yarada və kökəlməyə səbəb ola bilər. Xaşı yedikdən sonra fiziki aktivlik əsas şərtdir. Ürək, qan-damar sistemi və bu kimi digər xəstəliklərdən əziyyət çəkənlər isə həkim məsləhəti olmadan istehlak etməsinlər”.

Sonda isə mütəxəssis insanlara hər gün xaş yeməyi tövsiyə etdiyini qətiyyətlə dilə gətirdi:

“Əgər diqqət etmisinizsə, xaş yedikdə insanı yuxu tutur. Bu da ifraz olunan melatonin hormonu ilə əlaqədardır. Bu hormon insanda gümrahlıq hissi yaradır, immun sistemini gücləndirir. Beləcə, insan orqanizmi viruslara qarşı daha müqavimətli olur. Soyuq aylarda xaş istehlak etməyi yeyə bilən və bilməyən hər kəsə şiddətlə tövsiyə edirəm. Hər səhər yesinlər. Ona görə də ”3 gün” kurs keçib, adını dietoloq qoyanlara qarşı dövlət ciddi tədbirlər görməlidir”.

*Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin BƏYANATI



Əminəm ki, təqribən, 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik. Bunu Prezident İlham Əliyev Cəbrayıldakı çıxışı zamanı deyib.

### Həftənin MƏHBUSU



Gürcüstan məhkəməsində Mixail Saakaşvili barədə işlərdən birinə noyabrın 10-u baxılacaq. Bu barədə Saakaşvilinin vəkili Beka Basilaya məlumat verib. Saakaşvili parlamentin deputatı Valeri Gelaşvilinin döyülməsi və “Gürcüstan Birləşmiş Bankı”nın əməkdaşı Sandro Girqvlianinin öldürülməsi işi üzrə məhkəmənin üç instansiyası tərəfindən təqsirli bilinir. Tezliklə ölkənin keçmiş Prezidentinə qarşı daha bir ittiham - dövlət sərhədini qanunsuz keçmə irəli sürüləcək. Baş Prokurorluğun məlumatına görə, Saakaşvilinin Ukraynaya ekstradisiyası nəzərdə tutulmayıb və o, həbs müddətini öz ölkəsində çəkəcək.

### Həftənin ETİRAFI



Litvada səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsi və Şuşa ilə bağlı danışıb: “Bu gün çoxları müharibəyə yol verməkdən danışır. Bunun yeganə şərti ərazilərin qaytarılması idi. Odur ki, müharibəyə yol verməmək üçün biz əraziləri qaytarmalıydıq. Ən azı beş rayonu, o biri iki rayon məsələsi başqadır. Əslində isə gərək qeyd-şərtsiz 7 rayonu qaytaraydıq”. Şuşa barədə də danışan Paşinyan bildirib ki, bu şəhər ermənilərin nəzarəti altında olarkən heç bir yaşayış binası tikilməyib: “Bu gün əleyhdarlar Şuşa haqqında danışırlar. Bəs, 30 il ərzində Şuşada neçə yaşayış binası tikilib? Cavab verirəm, heç biri. Pulları olmayıb? Nədir bunun səbəbi? Məncə, cavabı aydındır”.

### Həftənin TƏHQİRİ



Rusiya Prezidenti Vladimir Putinin şəkli olan lövhə ermənilər tərəfindən təhqir edilib. Hafta.az xəbər verir ki, bununla bağlı görüntü sosial şəbəkədə yayılıb. Bildirilir ki, lövhə Ermənistan ərazisində quraşdırılıb. Lövhədə həm rus, həm erməni dillərində “Əbədi birlikdə” yazılıb.

### Həftənin ÜZRÜ



“Facebook”un sahibi Mark Zukerberq sosial şəbəkənin fəaliyyətində yaranan problemə görə istifadəçilərdən üzr istəyib. O, bu barədə özünün “Facebook” hesabında yazıb: Şirkət sahibi bildirib: ““Facebook”, “Instagram”, “WhatsApp” və “Messenger” yenidən onlayn fəaliyyətə qayıdır. Bugünkü problemlərə görə üzr istəyirik - maraqlandığınız insanlarla əlaqə saxlamaq üçün xidmətlərimizə nə qədər etibar etdiyinizi bilirəm”.

### Həftənin İTTİHAMI



Bəzi federasiyalar legioner siyasətindən sui-istifadə edirlər. Məsələn, bəzi idmançılar deyirlər ki, milli komandaya düşə bilərdim, amma imkan vermədilər. Bunların hamısı araşdırılacaq. Bunu gənclər və idman naziri Fərid Qayıbov deyib. Nazir Mariya Stadnik kimi idmançılara legioner kimi baxmadıqlarını söyləyib: “Dörd olimpiadada bizə medal qazandırıb. Belə legionerlərimiz də var. İnanıram ki, onlar gənclərimiz üçün çox yaxşı örnək olacaqlar”.

### Həftənin MƏRHUMU



Koronavirusdan vəfat edən müğənni Səyyad Əlizadə vəsiyyətinə uyğun olaraq, Füzuli rayonunun Babı kəndində valideynlərinin yanında torpağa tapşırılıb. Dəfndə rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri və sənət yoldaşları iştirak ediblər. Qeyd edək ki, S. Əlizadə koronavirusdan müalicə aldığı Mərkəzi Gömrük Hospitalında 63 yaşında vəfat edib.

*Azad Əliyev*

## “Vətən sevgisinə rəng qat!” adlı rəsm müsabiqəsi ®




***“Bakcell” və «GİD CSR Consulting» şirkəti uşaqlar arasında “Vətən sevgisinə rəng qat!” şüarı altında rəsm müsabiqəsi elan edib. Layihənin məqsədi vətən uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin övladlarına öz həmyaşıdlarının qayğı və diqqətini göstərməkdir.***

Layihə çərçivəsində Bakı və Sumqayıt şəhərlərində və Abşeron rayonunda yaşayan 7-17 yaşlı uşaqlar arasında rəsm müsabiqəsi elan ediləcək. Seçilən rəsm əsərlərinin satışından əldə olunan vəsait isə İkinci Qarabağ müharibəsi şəhidlərinin övladlarına hədiyyələrin alınması üçün xərclənəcək. Beləliklə, “Vətən sevgisinə rəng qat!” şüarı altında keçirilən bu aksiyaya qoşulan uşaqlar 100 şəhidin övladına dəstək və dostluğunu nümayiş etdirmək imkanı əldə edəcək.

Aksiyada iştirak etmək istəyən uşaqlar sərbəst mövzu üzrə çəkilmiş rəsmlərini 01 noyabr 2021-ci il tarixinə qədər office@gidconsulting.az <mailto:office@gidconsulting.az> ünvanına göndərməlidir. Müsabiqədə iştirak qaydaları və aksiya barədə daha ətraflı məlumat <https://gidconsulting.az/?p=101> səhifəsində yerləşdirilib. Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişafını, təhsilini və cəmiyyətə inteqrasiyasını diqqət mərkəzində saxlayır. Şirkətin həyata keçirdiyi

“Bakcell Stars” adlı Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir.

## Yüksəksürətli mobil interneti “Azercell”ə kəşf edin! ®

**“Azercell Telekom” MMC hər bir abunəçisinin internet tələbatını qarşılamağı hədəfləyərək geniş çeşiddə və istənilən büdcəyə uyğun internet paketlərindən yararlanmaq imkanı yaradır. Lider mobil operator müştərilərinə istifadə etdikləri cihaz və internet həcmindən asılı olaraq müxtəlif “Aylıq”, “Günlük” və “Limitsiz” internet paketlərini təklif edir.**

Azercell-in “Aylıq” internet paketləri mobil data xidmətlərindən daim istifadə edən abunəçilər üçün ən sərfəli seçimdir. Həmçinin bu paketlər çərçivəsində WhatsApp tətbiqi daxilində pulsuz mətnli yazışma imkanı təqdim edilir. Odur ki, hər ay stabil olaraq internet işlədənlərə həcmi 500 MB-dan başlayaraq 50 GB-a qədər dəyişən aylıq internet paketlərinin birinə abunəlik xidmətini aktiv etmək tövsiyə olunur.

Əlavə məlumat üçün: https://www.azercell.-com/az/personal/plans-and-services/internet-pack/monthly.htmlHəmçinin Azercell abunəçiləri “Günlük” internet paketlərindən yararlanaraq 100 MB və ya 500 MB həcmində olan internet paketlərindən birini seçə bilərlər. Ətraflı məlumat: https://www.azercell.com/az/personal/plans-and-services/internet-pack/daily.html

Hər hansı trafik məhdudiyyəti olmadan limitsiz həcmdə mobil datadan yararlanmaq istəyən abunəçilər üçün lider mobil operator xüsusi “Limitsiz” internet paketlərini təqdim edir.




Azercell müşləriləri “Limitsiz” internet paketləri çərçivəsində 1, 3 və 6 saatlıq internet paketləri, eləcə də bütün gecə boyunca və ya həftəsonu ərzində istifadə üçün nəzərdə tutulan xüsusi internet paketlərindən yararlana bilərlər. Ətraflı məlumat: https://www.azercell.com/az/personal/-plans-and-services/internet-pack/unlimited.html

“Misrosoft Teams” proqramının daimi istifadəçiləri üçün isə Azercell “Təhsil” internet paketlərini təqdim edir. Bu paket pandemiya dönəmində xüsusilə aktuallıq qazanan onlayn görüşlərə, məsafədən keçirilən dərslərə əsas internet trafikini xərcləmədən daha sərfəli şərtlərlə qoşulmaq imkanı yaradır. Əlavə məlumat üçün: https://-www.azercell.com/az/personal/campaigns/internet/educational.html Azercell-in internet paketləri ilə rəqəmsal dünyanın hədsiz imkanlarından yararlanmağa tələsin!

## GÜNÜN FOTOSU



**Şuşada içməli su xətləri yenidən qurulur...**

## “İran islamçıların iqtidarda qalmasına çalışır...”

**Riyaz Sarıkahya,**
Türkməneli Partiyasının sədri

Türkmən Məclisinin qurulması bütün türkmənlərin arzusudur.

Səh. 6

## STATİSTİKA



■ Subay oğlanların 50 faizindən çoxu 27 yaşına qədər valideynləri ilə birlikdə yaşayır.

■ Kişilər qadınlarla müqayisədə daha rahat çəki ata bilmələrinə baxmayaraq, statistik rəqəmlərə əsasən varlı kişilər arasında artıq çəkidən əziyyət çəkənlərin say varlı qadınlarla müqayisədə iki dəfə çoxdur.

■ Kişilərin əksəriyyəti evlilik üçün ən ideal zamanın 25-30 yaş olduğu qənaətindədir. Lakin onların 50 faizi daha erkən yaşlarında evlənir.



Səh. 7

## Marketlər çörək istehsalçılarından vitrinpulu tələb edir